Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Klassik ədəbiyyatımızın layiqli varisi Qasım bəy Zakir

## Qasım bəy Zakirin 240-illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı- 2024

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

Qasım bəy Zakirin 240-illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2024. – 57s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

## Tərtibçidən

Q. Zakirin ədəbi irsi Azərbaycan ədəbiyyatı xəzinəsinə, onun realist qolunun inkişafı tarixinə yeni bir mərhələ açan hadisə kimi daxil olmuşdur. Qasım bəy Zakir görkəmli şair, Azərbaycanda XIX yüzillik ictimai satirasının banisi, maarifçi, aşıq poeziyasının varisi və davamçısıdır. Azərbaycan klassik ədəbiyyatının qabaqcıl ənənələrinin layiqli davamçısı olan şair, onun məzmununu xeyli zənginləşdirmiş, haqsızlığı, ictimai bərabərsizliyi, istismarçı siniflərin yaramaz əxlaqını, yadelli işğalçıların özbaşınalığını ifşa edərək, qiymətli əsərlər yaratmışdır.

Qasım bəy Zakirin yaradıcılığı öz dövründə Mirzə Fətəli Axundov kimi dahi sənətkarın diqqətini cəlb etmişdir. O, şairin realist yardıcılığını, əsərlərindəki məzmun zənginliyini qiymətləndirmişdir. N.Nərimanov Azərbaycan dili və ədəbiyyatının inkişafı uğrunda mübarizə aparark ən ana dilinin gözəl məziyyətlərini əks etdirən Q. Zakirin şeirlərini öyrənməyə çağırırdı. Ədəbiyyatşünas alim F.Köçərli də Q. Zakirə öz zəmanəsinin ən huşyar, ən istedadlı sənətkarı kimi baxırdı. Böyük xalq şairi Səməd Vurğun Zakiri xüsusi məhəbbətlə sevmiş, onun cəsarətli, qorxmaz şair mənliyini yüksək qiymətləndirmişdir. Seyid Əzim Şirvani, M. Ə. Sabir də klassik ədəbi irsdən öyrənərkən Zakirin müasir ruhlu realist şeirlərindən qidalanmışlar. Q. Zakir M. P. Vaqifdən sonra Azərbaycan bədii dilini yüksək pilləyə qaldırmağa çalışan ən qüdrətli sənətkarlardandır. O, dil məsələsinə yaradıcı sənətkar kimi baxmış, şeirin, sənətin xalqa xidmətini daima nəzərə almışdır. Şair əsərlərini xalqın başa düşdüyü bədii dildə yazmışdır. Buna görə də M. F. Axundov, F. Köçərli, Ə. Haqverdiyev, A. Şaiq Azərbaycan dilinin incəliklərindən, gözəlliklərindən danışarkən Zakirin adını dönə - dönə çəkmişlər. Şairin yaradıcılığında XIX əsrin birinci yarısına məxsus Azərbaycan ədəbi – bədii dilinin əsas xüsusiyyətləri, səciyyəvi cəhətləri, poetik deyim tərzi

parlaq şəkildə öz əksini tapmışdır. Q. Zakir Azərbaycan bədii dilini yeni pilləyə qaldıraraq, məzmunca dolğun, formaca bitkin satirik şeirləri, qoşmaları, gəraylıları ilə öz dövrünün şairlərindən fərqlənmiş, ustad bir sənətkar kimi diqqəti cəlb etmişdir.

Kökü real həyata bağlı olan satira mövzusu Zakirin mübariz qələmi ilə daha yüksək mərhələyə qaldırıldı və mühitin eybəcərlikləri bu parlaq güzgüdə əks etdirildi. Zakirin satirası əsarət, avamlıq və zülmü kəskin tənqid və ifşa etməkdə indi də öz əhəmiyyətini itirməmişdir. Sanki dövr bu ölməz sənətkarı ictimai çirkinlikləri ifşa etmək üçün yaratmışdı.

Bu il Qasım bəy Zakirin 240 illik yubileyidir. Bu münasibətlə F. Köçərli adına kitabxananın Elmi metodika şöbəsi olaraq Qasım bəy Zakirdən bəhs edən bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsaiti yazmaqda məqsəd Respublikamızda fəaliyyət göstərən uşaq kitabxanalarına bu mövzuda köməklik etməkdir. Vəsait iki hissədən ibarətdir. I hissə Qasım bəy Zakirin həyat və yaradıcılığından, II hissə isə kitabxanada şairə həsr olunmuş yubiley tədbirlərindən bəhs edir.

# Söz sərrafı Qasım bəy Zakir

Qasım bəy Zakir görkəmli şair, maarifçi, Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi, aşıq poeziyasının varisi və davamçısıdır. XIX əsr Azərbaycan realist poeziyasının görkəmli yaradıcılarından olan Qasım bəy Zakir aşiqanə - lirik şeirləri, dövrünün ictimai eyiblərini ifşa və tənqid edən əsərləri ilə ümumxalq şöhrəti qazanmışdır. Q.Zakir Azərbaycan ədəbiyyatında realizmin görkəmli nümayəndəsi, maarifçi realist satiranın banisidir. O, Azərbaycan bədii dilinin inkişafı sahəsində böyük xidməti olan sənətkarlardandır.

Ədəbi – etik tariximizdə təlim – tərbiyə məsələlərinin bədii həlli həmişə tutumlu olmuşdur. Söz – sənət ustalarımız xalq yaradıcılığından, Şərq ədəbiyyatının, müdrikliyinin tükənməz çeşməsindən bəhrələnmiş, hər biri öz yaradıcılıq üslubuna, bədii zövq və amalına müvafiq təlim – tərbiyəyə, əxlaqi təmizliyə dair qiymətli fikirlər söyləmiş, insanpərvərlik və dostluq ideyalarını tərənnüm etmiş, zülmü və haqsızlığı, ətalət və cəhaləti pisləmişlər. Onların əsərlərində insanın şərəfinə, izzət və ləyaqətinə hörmət, insana həqiqi qayğı xüsusi məhəbbətlə təsvir olunmuşdur. Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində doğulmuşdur. Onun əsli Qarabağda məşhur olan Cavanşirlər nəslindəndir. Ulu babası Kazım ağa Şuşa şəhərinin əsasını qoyan Pənah xanın doğma qardaşıdır. Q.Zakir ilk təhsilini Şuşada mollaxanada almış, ərəb, fars, dillərini öyrənmişdir. Bu dilləri bilməsi ona Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustadlarının əsərləri ilə tanış olmaq imkanı vermişdir. Zakir mollaxanada oxuduğu illərdə adları çəkilən sənətkarların bədii irsini oxuyub öyrənmişdir. Şairin yeniyetməliyi və gəncliyi Qarabağda baş vermiş siyasi-hərbi hadisələr dövrünə təsadüf edir.1795-ci ildə Qacarın Qarabağa

hücum edib Şuşanı mühasirədə saxlaması, əhalinin şəhəri mərdliklə müdafiə etməsi, bundan iki il sonra Qacarın Şuşada qətli, şair Molla Pənah Vaqifin öz oğlu ilə birlikdə Cıdır düzündə öldürülməsi, XIX əsrin əvvəllərində İbrahim xanın Qarabağda vəhşicəsinə güllələnməsi və s. onun yeniyetməlik və ilk gənclik illərində gördüyü hadisələr, eşitdiyi əhvalatlar idi. Bu hadisələr onun dünyagörüşünün formalaşmasında öz təsirini göstərmişdir.

Qasım bəyi görənlər, o cümlədən Əhməd bəy Köçərlinin rəvayətinə görə, o zati-şərif xoşsurət və xoşsima, ağ bədənli, uca qamətli, zəifülbünyə bir vücud imiş. Göyçək, ağıllı və göy rəngə mail gözləri var imiş. Simasından, hərəkət və süknasından asari-nəcabət və rəşadət görünərmiş. Danışığı fəsih və sövtü dilkəş olmağa görə, çoxlarını özünə mail edərmiş. O danışanda ona qulaq asmamaq olmazmış. Bir az tündməcazmış. İnsaf və mürüvvətdən xaric sözlər və işlər şairi təbii halından çıxarıb, onun qeyzü hiddətinə səbəb olarmış. Amma acığı tez sönüb tövbə və istiğfar edərmiş. Adəti halında ziyadə həlim, rəhimli və mürüvvətli bir adam imiş. Qasım bəy Zakir çar ordusunun könüllü atlı dəstəsinə qoşulumuş, 1806-1813, 1826-1828-ci il Rus-İran müharibələrində iştirak etmişdir. Döyüşdə fərqləndiyinə görə 1828-ci ildə gümüş medalla təltif edilmişdir.

1829-cu ildə Zakirin oğlu xəstələnib vəfat edir. Bu hadisə şairi dərindən kədərləndirir, onun şax qəddini əyir. Bu münasibətlə yazdığı bir şerində Zakir oğlunun ölümündən doğan iztirablarını təsvir edərək bildirir ki, həmişə Yaqub kimi qəm çəkirəm, Yusifin gedişindən dəli kimiyəm. Şam kimi yanıram, təkcə gecələr yox, gündüzlər də yanıram.

Zakir 1830-cu ildə könüllü polis dəstələrinin tərkibində Balakənə getmiş, Cardakı üsyanların yatırılmasında iştirak etmişdir. O, dostu Baba bəy Şakirə göndərdiyi "Car müqəddiməsi" adlı mənzum məktubunda Qarabağ atlılarının

döyüşdə göstərdiyi igidlikləri tərifləmiş, özünün şücaəti haqqında yazmışdır. Gənclik illərini at belində, müxtəlif müharibələrdə və döyüşlərdə keçirən Qasım bəy Zakir 30-cu illərin sonlarında tamam təsərrüfatçılıqla məşğul olmağa başlayır. O, ilin yay fəslini Şuşada, qalan fəsillərini isə Xurşidbanu Natəvanın atası Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində keçirirdi.

Qasım bəy Zakir müasirləri arasında da dərin hörmət və böyük nüfuz qazanmışdır. Azərbaycanın Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qurtqaşılı, Baba bəy Şakir, Xurşidbanu Natəvan kimi tanınmış ziyalıları, habelə gürcü knyazı İliko Orbeliani, Bakı general-qubernatoru Mixail Kolyubakin onun məktublaşdığı, əlaqə saxladığı məşhur şəxsiyyətlər idi. Lakin Zakiri sevməyənlər, onun paxıllığını çəkənlər də var idi. Qarabağda öz fitnə-fəsadları ilə ad çıxarmış Cəfərqulu xan Nəva, Şuşa qazisi Mirzə Əbülqasim, yerli çar hakimi Konstantin Tarxan-Mouravov onun qəddar düşmənləri idilər. Zakirin satirik tənqidinə hədəf olmuş bu adamlar şairi dövlət yanında etibardan salıb tutdurmaq üçün müəyyən bəhanə axtarır, uyğun məqam gözləyirdilər. Nəhayət belə bir bəhanə tapıldı: K.Tarxan-Mouravov Zakiri hökumətdən qaçaq düşmüş qardaşı oğlu Behbud bəy Cavanşiri evində saxladığına görə günahlandıraraq təqib etməyə başladı. 1849-cu ilin oktyabr ayında o, böyük bir atlı-yaraqlı dəstə ilə Zakirin yaşadığı Xındırıstan kəndinə hücum etdi. Şair bu dəstənin Behbud bəyi axtarmaq üçün gəldiyini güman edirdi. Ona görə oğlu Nəcəfqulu bəylə qardaşı oğlu İskəndər bəyi həmin dəstəni qarşılamağa göndərdi. Lakin Tarxan-Mouravov onları öz düşüncəsi ilə qarşıladı: onları Behbud bəyə köməkçi olmaqla ittihamlandırıb hər ikisini həbs etdi və Şuşa qalasındakı həbsxanaya göndərdi. Həmin gün Zakirin özünü də ailə üzvləri və yaxın qohumları ilə birlikdə həbs edib Şuşa həbsxanasına gətirdilər. Bununla da ürəyi

soyumayan Tarxan-Mouravov Xındırıstan kəndini öz atlılarına qarət etdirdi və kənd camaatını tamamilə yoxsul vəziyyətə saldı. Həbsxanada olarkən şair bir neçə dəfə yuxarı hökumət dairələrinə məktubla qanunsuz tutulduğunu yazıb bildirsə də onun şikayətlərinə ədalətli cavab verilmədi. Şair bir ilə qədər Şuşa həbsxanasında qaldıqdan sonra mühakimə olunmadan Bakıya sürgün edildi. Nəcəfqulu bəylə qardaşı oğlu İskəndər bəyi isə Tiflisə gətirib, oradan əvvəlcə Voronejə, Voronejdən isə Kaluqaya sürgün etdilər. Şairin ailəsi isə Şuşada qaldı. Bakıya gəldikdən sonra Zakir dövlət idarələrində çalışan dostlarına məktub yazıb qanunsuz həbs edildiyini bildirdi. O zaman Tiflisdə Canişinlik idarəsində işləyən Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qurtqaşınlı, Bakı qubernatoru Mixail Kolyubakin, Gürcü knyazı İliko Orbeliani Zakirin şikayətlərini dinləyib, sürgündən azad olmasına çalışdılar. Şair bir neçə ay Bakıda sürgün həyatı keçirəndən sonra bu şəxslərin səyi nəticəsində Şuşaya qayıtdı. Lakin o, ömrünün axırınadək polis nəzarəti altında yaşadı. Oğlu və qardaşı oğlu isə 3 il Rusiyada sürgündə qaldılar.

Nəzarət altında yaşamaq şairin ömrünün son aylarında fərəhsiz ömür sürməsinin səbəblərindən biridir. Bunlardan biri də maddi ehtiyac içində yaşamasıdır. Dostlarının xidmətlərinə görə 1857-ci ildən başlayaraq 36 manat təqaüd təyin edilmişdir. Lakin təqaüd kağızı Şuşaya çatanda artıq qoca şair dünyasını dəyişmişdi. Qasım bəy Zakir ömrünün sonlarını maddi ehtiyac və çətinliklər içərisində başa vurmuşdur. O, 1857-ci ildə Şuşada vəfat etmiş və şəhərin Mirzə Həsən qəbirstanlığında dəfn edilmişdir.

## Yaradıcılığı

İşıqlı şəxsiyyət kimi məşhur olan Qasım bəy Zakirin təmsilləri də neçə-neçə nəslin sevə-sevə oxuduğu əsərlərdəndir. Vicdanın hökmünə qulaq asıb mütərəqqi ideyaların havası ilə nəfəs alan Zakirin didaktik məzmunlu əsərləri yeniyetmələrin poetik və əxlaqi etik tərbiyəsində indi də öz dəyərini saxlayır, gənc oxucuların mütaliəsindən heç vaxt kənarda qalmır.

Xalqını, öz doğma yurdunu məhəbbətlə sevən şair bu təmsildə heyvanların bir ailə kimi yaşamalarını, birliyini insanlara anladır, onları qəflət yuxusundan ayıltmağa çalışır. Müdafiəsiz zəhmətkeş xalqa rəğbət, məhəbbət hissi bəsləyən şairin əsas fikri budur ki, fəqir və zəiflər birləşsələr, hər işdə qalib gələ bilərlər. Elə buna görə də təmsil qoluzorlulara xəbərdarlıq kimi səslənir. Qasım bəy Zakirin satiraları əsas etibarı ilə çar hakimləri və çarizmin müstəmləkəçi qanun və qaydaları əleyhinə çevrilmişdir. Zakirin satirasında ən amansız tənqid olunanlar gücsüzlərin və acizlərin hüquqlarını tapdalayanlardır. İfşaçılıq, kəskin tənqid və kinayəli gülüş Zakir satiralarının əsas xüsusiyyətlərindəndir. O, ictimai nöqsanları sadəcə təsvir etməklə kifayətlənmir, eyni zamanda onlara qarşı özünün kəskin tənqidi münasibətini, nifrət və qəzəbini də bildirir. Bu cəhətdən XIX əsrin görkəmli simalarından sayılan Q. Zakir yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. O, qələmini müxtəlif janrlarda sınaqdan çıxarır, təsvirlərinə açıq təfəkkürlə yanaşırdı.Onun şeirlərində lirik qəhrəmanın həyəcan və iztirabları, intizar və kədər hissləri ustalıqla, solmaz poetik boyalarla qələmə alınmışdır. Həyat rişəli satirik məzmunlu əsərləri, mənzum məktubları ilə şair feodal əxlaqının müxtəlif tərəflərini tənqid atəşinə tutur, ictimai ədalətsizliyə qarşı üsyankar səsini ucaldır, dini əsarətin, mövhumatın və fanatizmin xalqın mədəni inkişafına buxov kəsildiyini, adamların mənəvi şikəstliyinə səbəb olduğunu göstərirdi.

Onun ictimai məzmunlu “Gözüm yolda qaldı, könül intizar”, ”Dost yolunda cəfa çəkdim, can üzdüm”, ”Dərdbilməzlər qınar məni, heç deməz”,”Bir saat havada qanad saxlayın”, “Cəfa çəkdim, bağ yetirdim” misraları ilə başlanan qoşma və gəraylıları, işıq və nurla dolu bəzi satirik məzmunlu məktubları yeniyetmələrin fikri, əxlaqi tərbiyəsinə, həyat həqiqətlərini anlamalarına kömək edən əsərlər kimi qiymətlidir. Bunlarla bir sırada maarifçi şairin ədəbi irsində XIX əsr milli uşaq ədəbiyyatımızın inciləri səviyyəsində olan mənzum hekayələri, təmsilləri də faydalı və gərəkli əsərlərdir.

Didaktik məzmunlu bu poetik əsərlərdə şair həyatın tələbindən doğan mövzuları qələmə almış, zülm, istismar dünyasını, cəhalət və zorakılığı tənqid etmişdir. Onun tərbiyəvi əhəmiyyət daşıyan əsərlərinin ruhunu yüksək humanizm, dostluq, insanpərvərlik, zəhmətsevərlik təşkil edir. “Həyasız dərvişlər haqqında” mənzum hekayəsi ilə Zakir əməyə, zəhmətə xor baxanları, başqasının qazancına göz dikən tüfeyliləri ifşa hədəfinə alır, oxucularını halallıqla yaşamağa çağırırdı. Hekayədə şair öz fikirlərini həyat və məişət barədə ağıllı mühakimə yürüdən cəsarətli bir qızın dili ilə söyləyir. Hekayə mühakimə - dialoq şəklində qurulmuşdur. Burada şair tərbiyəvi fikirlə ifşaedici boyalar arasında bir vəhdət yaradaraq dövrün vacib məsələlərinə toxunmuş, həyat həqiqətini, zamanın ruhunu ifadə etməyə çalışmışdır. Q.Zakirin təmsilləri də mənzum hekayələri kimi maraqlıdır. Təmsilləri öz ideyası ilə onun satiralarına həmahəngdir, burada dövrün ictimai və siyasi hadisələrinə ehyam və işarələr vardır. Qəlbinin hökmü ilə yazan şair bunları sadəcə təsvir etmirdi, mövzuları müasirləşdirir, dövrün qayda – qanunları ilə razılaşmadığını bildirirdi.

Dünyanın əşrəfi sayılan insanı eybəcər vəziyyətə salan, cəmiyyətdə zülmün, şərin artmasına bais olan ikiüzlülük, paxıllıq, fırıldaqçılıq və bunlara bənzər mənfi əxlaqi sifətlər

pislənir. Zülm, zorakılıq, hiylə, yaltaqlıq, acgözlük, xəyanət, nadanlıq və s. kimi ictimai eyblərə qarşı mübarizə: vəfa, məhəbbət, doğruluq və başqa nəcib sifətlərin tərənnümü Zakir təmsillərinin əsas motivləridir. Öz səviyyəsi etibarilə bu təmsillər xalq şeirinə yaxındır. Atalar sözləri, xalq ifadə və zərb məsəlləri ilə zəngindir ki, bu da şairin xalq ədəbiyyatından səmərəli və bacarıqla istifadə etdiyinə gözəl dəlildir.

Qasım bəy Zakirin hələlik altı təmsili məlumdur. Bu təmsilləri mündəricələri baxımından iki qismə bölmək olar. Müəllifin ictimai ədalətsizliyə, hakim təbəqələrə kəskin tənqidi münasibəti ”Tülkü və şir”, “Aslan, qurd və çaqqal”, ”Sədaqətli yoldaşlar haqqında” adlı təmsillərində öz ifadəsini tapmışdır.

“Aslan, qurd və çaqqal” təmsilində göstərilir ki, qolugüclülər (aslan) və onlara yaltaqlıq edənlər (çaqqal) çox yaxşı dolanır və yeri düşəndə müsibətlər də törədirlər.”Tülkü və şir” də zalımlara nifrət, məzlumlara rəğbət hissi ifadə olunur:

Biri o kim, hər kəs xəlqə zülm edər.
Aqibət ədl ilə fənaye gedər...
Biri o kim, biməsləhət, biəndiş
Bu dari – dünyadə düzəltməz heç iş.
Biri o kim, sanma düşməni həqir,
Eylər səni axır bəlayə əsir.

Sədaqətli dostlar haqqında təmsili ictimai məzmunu etibarilə daha səciyyəvidir. Təmsilin iştirakçıları tısbağa, kəsəyən, ahu və qarğadır. Tora düşmüş ahunu azad etməkdən ötrü dostlar birlikdə işə girişib öz məqsədlərinə nail olurlar. Zakirin əxlaqi tərbiyəvi xarakter daşıyan təmsilləri sırasında “Dəvə və eşşək”,”Tülkü və qurd”, ”Xain yoldaşlar haqqında” adlı əsərlərini göstərmək olar. Qasım bəy Zakir təmsillərində xalqın canlı danışıq dilindən, xalq ədəbiyyatından geniş istifadə etmişdir: ”Quyruğun basdın ilanın”, ”Kiçikdən xəta, böyükdən əta”, ”Əvvəl suyu yoxla, sonra soyun”, ”Bir paydan bir kişi

doyar, gər bölünə, ikisin də ac qoyar”, ”Yaxşı gündə mənəm – mənəm deyənlər”,”Ovu göydə alıb, göydə yeyənlər”, “Güclüyə nə duz, nə çörək”, “Heç adətdə yoxdur elçiyə zaval”,”El namusu elə düşər”, “Kürəyə düşməyən olmaz yumşaq”,”Hər meşəyə güman aparma, boşdur” və s.

Zakir satirasının və eləcə də onun başqa realist şeirlərinin ifşa obyekti şairin yaşadığı mühitin ictimai yaramazlıqlarıdır. Cəmiyyətin sağlam yollarla inkişafı üçün ictimai yaramazlıqların tənqidi əhəmiyyətli idi. Şairin tənqid hədəflərindən biri də özbaşınalıq, rüşvətxorluq, dələduzluq dolu olan çar idarə və məhkəmələridir. Qansoranlar idarə və məhkəmələrə soxularaq,”qanunu” qorumaq əvəzinə ölkədə cinayətin, “büxlü həsədin” həddən aşması üçün şərait yaratmışlar. Onun:

“Gün kimi tutub aləmi bu şöhrəti bica:
Divan əmələçatına yox ədldə həmta”

beytilə başlayan satirası divanxanalardakı yalanı, hiyləni, alçaq işləri qəzəb və acı kinayə ilə nəql edir.

Şərq şeirinin xüsusiyyətlərindən biri də onda nəsihətçilik ruhunun olmasıdır. Bu xüsusiyyət Nizami, Sədi, Füzuli kimi qüdrətli sənətkarların əsərlərində də görünür. Həmin nəsihətçilik ruhu Q. Zakir yaradıcılığında özünü büruzə vermişdir. “Məyusluq vaxtında arsızlıq edən kəm”, ”tərlan və elçi” adlı mənzum hekayələri buna misal ola bilər. Şair birinci hekayəsində arsız adamların ağıldan da naqis olduqlarını, hər işi tərsinə gördüklərini söyləyir və bu xüsusiyyətdə olan “hərcayi”,”bilməzə” bir kişi ilə “mərdi – aqil”i qarşılaşdıraraq son nəticədə bu qənaətə gəlir ki:

Aqil gərək yeksan ola hər zaman,
Qoymaya qəlbinə yol tapa şeytan ...

Qasım bəy Zakir qismən əfsanəvi – romantik xarakterdə olan hekayələrində ağıl və zəkanın, səmimi eşqin şöhrət və vara

qalib gəldiyini tərənnüm edirdi. Nizamidə, Füzulidə olduğu kimi, Zakirdə də məhəbbət insanı yüksəldən, kamilləşdirən mənəvi sifət kimi əsaslandırılırdı.

Zakirin yaradıcılığında onun mənzum hekayə və təmsilləri də mühüm yer tutur. Nizami, Xaqani, Füzuli və başqa Azərbaycan klassikləri öz mənzum hekayələrinin çoxunu müasir həyatın tələblərinə uyğun olaraq yazmışlar. Klassiklərin mənzum hekayələrində müəyyən hadisələrin, real insan surətlərinin, qabaqcıl ideyaların təsvir və tərənnümü verilir. Eyni xüsusiyyətlər Zakirin mənzum hekayələrində də var. Onun müxtəlif mövzularda yazılan "Məlikzadə və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər", "Tərlan və elçi", "Dəvəsi itən kəs", "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxlaqsız qazı", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl alim" kimi mənzum hekayələri vardır.

Zakirin mənzum hekayələrində məhəbbət insanın ülvi və nəcib hissi kimi təsvir olunur. Məhəbbətdə sədaqət, mətanət və dözümlülük, vəfada möhkəmlik bu hekayələrin bir qismində əsas məzmunu təşkil edir.

Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" ("İlan, Dəvə, Tısbağa"), "Tülkü və Şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, Qarğa, Kəsəyən, Ahu") adları ilə altı təmsili çap olunmuşdur. Zakir təmsillərini yazarkən birinci növbədə şifahi xalq yaradıcılığında geniş yayılan təmsillərdən və məşhur hind abidəsi "Kəlilə və Dimnə" əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli təmsillərindən də istifadə etmişdir. Zakir təmsillərini yeni tarixi şəraitə, müasir həyatın tələblərinə uyğun olaraq yazmışdır. Bu əsərlərdə təbliğ olunan ideya şairin dövrü ilə həmahəng idi. O,

bir tərəfdən dövrünün ictimai və siyasi hadisələrinə özünün eyhamları ilə işarələr edir, zülmün əleyhinə çıxır, o biri tərəfdən zəmanə gənclərinə vəfa, sədaqət, mərdlik və s. kimi nəcib tərbiyəvi məsləhətlər verirdi.

Qasım bəy Zakir çar ordusunun könüllü atlı dəstəsinə qoşulumuş, 1813, 1826-1828-ci il Rus-İran müharibələrində iştirak etmişdir. Döyüşdə fərqləndiyinə görə 1828-ci ildə gümüş medalla təltif edilmişdir. 1829-cu ildə Zakirin oğlu xəstələnib vəfat edir. Bu hadisə şairi dərindən kədərləndirir, onun şax qəddini əyir. Bu münasibətlə yazdığı bir şerində Zakir oğlunun ölümündən doğan iztirablarını təsvir edərək bildirir ki, həmişə Yaqub kimi qəm çəkirəm, Yusifin gedişindən dəli kimiyəm. Şam kimi yanıram, təkcə gecələr yox, gündüzlər də yanıram.

Zakirin satiraları əsas etibarı ilə çar hakimləri və çarizmin müstəmləkəçi qanun və qaydaları əleyhinə çevrilmişdir. Zakirin satirasında ən amansız tənqid olunanlar gücsüzlərin və acizlərin hüquqlarını tapdalayanlardır. İfşaçılıq, kəskin tənqid və kinayəli gülüş Zakir satiralarının əsas xüsusiyyətlərindəndir. O, ictimai nöqsanları sadəcə təsvir etməklə kifayətlənmir, eyni zamanda onlara qarşı özünün kəskin tənqidi münasibətini, nifrət və qəzəbini də bildirir.

Zakirin mənzum hekayələrində məhəbbət insanın ülvi və nəcib hissi kimi təsvir olunur. Məhəbbətdə sədaqət, mətanət və dözümlülük, vəfada möhkəmlik bu hekayələrin bir qismində əsas məzmunu təşkil edir. Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun nəşr olunmuş əsərlərində: “Aslan, Qurd və Çaqqal”, “Dəvə və Eşşək”, “Tülkü və Qurd”, “Xain yoldaşlar haqqında” (“İlan, Dəvə, Tısbağa”), “Tülkü və Şir”, “Sədaqətli dostlar haqqında” (“Tısbağa, Qarğa, Kəsəyən, Ahu”) adları ilə altı təmsili çap olunmuşdur.

Zakir təmsillərini yazarkən birinci növbədə şifahi xalq yaradıcılığında geniş yayılan təmsillərdən və məşhur hind

abidəsi “Kəlilə və Dimnə” əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli-təmsillərindən də istifadə etmişdir.

Zakir təmsillərini yeni tarixi şəraitə, müasir həyatın tələblərinə uyğun olaraq yazmışdır. Bu əsərlərdə təbliğ olunan ideya şairin dövrü ilə həmahəng idi. O, bir tərəfdən dövrünün ictimai və siyasi hadisələrinə özünün eyhamları ilə işarələr edir, zülmün əleyhinə çıxır, o biri tərəfdən zəmanə gənclərinə vəfa, sədaqət, mərdlik və s. kimi nəcib tərbiyəvi məsləhətlər verirdi.

## II. Yubiley tədbirlərinin keçirilməsi

Azərbaycan ədəbiyyatında satiranın kökləri dərinlərə gedib çıxır. Lakin ictimai satiranın yaranmasında Q. Zakirin müstəsna rolu olmuşdur.Təcrübə və müşahidə göstərir ki, Qasım bəy Zakir yaradıcılığının ideya – bədii orijinallığını, estetik dəyərini dərindən mənimsətməkdə, onun irsinin ölməzliyinin sirrini açmaqda şairin əsərlərindəki folklorizmdən başlamaq daha faydalı olur, effektli nəticələr verir.

Ədəbiyyat tariximizdə görkəmli şair, maarifçi, Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi, aşıq poeziyasının varisi və davamçısı kimi səciyyələndirilən Zakir Molla Pənah Vaqif ənənələrini davam və inkişaf etdirmişdir.

Bu il Azərbaycanın görkəmli satirik şairi Qasım bəy Zakirin anadan olmasının 240 ili tamam olur.  Qasım bəy Zakir el arasında hörmətlə yad edilən, sevilən, vətənpərvər şəxsiyyətdir. Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. İlk öncə kitabxanada Qasım bəy Zakirin yubileyi ilə bağlı **kitab sərgi**sinin keçirilməsi vacibdir. Sərgidə Q. Zakirin indiyə qədər çap olunmuş kitabları, onun haqqında şair və yazıçıların yazdığı

əsərlər ilə yanaşı, dövrü mətbuatda da yer alan materialların nümayişi nəzərdə tutulmuşdur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər:

1)”Ölməz əsərləri ilə ölümsüzlük zirvəsini fəth edən Qasım bəy Zakir”;

2) ”Xalq sənətinə bağlı şair”

3) ”Qasım bəy Zakir-240”;

4) “Poeziyada yaşayan həyat”;

5) “Sərhədlər aşan poeziya”;

6) “Şair ömrü”;

7) “Zakir şeirinin sənətkarlığı”;

8) ”Həyatın tələbi, vicdanın hökmü”;

9) ”Böyük satirik Qasım bəy Zakir”;

10) ”Söz sərrafı Qasım bəy Zakir”;

11) ”Misraların siqləti” ; və s.


QASIM BƏY
ZAKİR


KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATI
QASIM BƏY ZAKİR
SEÇİLMİŞ
ƏSƏRLƏRİ


Qasım Bəy Zakir
SEÇİLMİŞ
ƏSƏRLƏRİ


Гасым бәј
Закир


Мустафа Мустафајев
ЗАКИР
ШЕРИНИН
СӘНӘТКАРЛЫҒЫ


ГАСЫМБӘЈ ЗАКИР
Дурналар

## Görkəmli şəxsiyyətlərin Qasım bəy Zakir haqqında söylədikləri fikirlər

Qasım bəy Zakirin əsərlərində mündəricə və formanın vəhdətini, dilin sadəliyi və ifadəliyi təşkil edir. Yazıçılıq mədəniyyətini Zakirdən öyrənmək lazımdır. Onun əsərlərinin ideya dərinliyi və sənətkarlığı ilə Şərqin ən böyük ustadları Hafiz və Sədi ilə bir cərgədə duran sənətkardır. Qasım bəy Zakir XIX əsr realist ədəbiyyatımızın inkişafına müsbət təsir göstərən və ona istiqamət verən maarifçi ziyalılardan olmuşdur.

Qasım bəy Zakirin ana dilimizin sevilməsində xidmətləri böyükdür. Ana dili hər bir sənətkarın əlində fikrini və hissini dolğun, düzgün əks etdirmək üçün əsas silahdır. Qasım bəy Zakir bu silaha yiyələnmiş, Vaqifdən sonra azərbaycan bədii dilini daha da zənginləşdirmiş və incələşdirmişdir.

**Firidun bəy Köçərli,**
*Maarifçi, pedaqoq*

Qasım bəy Zakirin" divani - əşarı" ədəbiyyat xəzinəmizin ziqiymət bir daşı mənziləsindəndir. Zakir qiymətləndirilərkən onun ictimai satira, tənqidi realizm və dil sahəsindəki fəaliyyəti birgə götürülüb tədqiq edilməlidir. Bütün bunlar Zakirin Vaqifdən sonra Azərbaycan ədəbiyyatını böyük bir təkanla irəlilətdiyini və ona ictimai dərinlik və fikir genişliyi verdiyini göstərir".

M.Ə.Sabiri Zakir satirasının övladı hesab edirəm, onun bu "həcvlər"dən doğulduğunu görürəm. Sabir Zakirin həcvlərindən doğma bir şairdir. Aralarındakı fərq budur ki, Zakir xəstə millətin bir əzası ilə məşğul olmuş; Sabir isə bütün millət vücudunu təşrih edib, onun çürümüş cəhalətlərini meydana çıxarır..."

**Yusif Vəzir Çəmənzəminli,**
*yazıçı*

Qasım bəy Zakirin şeirləri ana dilimizin gözəl məziyyətlərini əks etdirir. Mən sizi onları öyrənməyə çağırıram.

**Nəriman Nərimanov,**
*dövlət xadimi*

Qasım bəy Zakir bir tərəfdən klassik poeziyanın qəzəl, müxəmməs kimi janrlarında əsərlər yaratmış, həm də qoşma, gəraylı kimi formalarda şeirləri ilə aşıq poeziyası və klassik poeziya ənənələrini əlaqələndirmənin nümunələrini irs qoymuşdur. Zakirin istər klassik, istər aşıq poeziyası janr və formalarında olan əsərlərində diqqəti cəlb edən başlıca cəhət onun sadə, canlı, obrazlı dili, zəngin folklorizmidir.

Azərbaycan ədəbiyyatının bu görkəmli nümayəndəsi XIX əsrin birinci yarısında bir tərəfdən M. Füzuli və M. P. Vaqif ədəbi ənənələrini davam etdirərək qoşma, təcnis, gəraylı, qəzəl, müxəmməs, tərcibənd və tərkibbəndləri ilə şeirimizi mövzu və ideya cəhətdən zənginləşdirmiş, digər tərəfdən isə təmsilləri, satirik şeirləri və mənzum məktubları ilə tənqidi realizmin əsasını qoymuşdur.

Qasım bəy  Zakirin şeirinin uzun ömürlülüyünü həmişə onların məzmun və ifadə  gözəlliyi ilə, forma və dil gözəlliyi ilə bağlamışlar. Zakirin şeirlərinə öz həqiqi qiymətini xalq vermişdir.

“Zakirin yaradıcılığında realizm daha da büllurlaşır, kəskinləşir, ictimai mübarizədə bir vasitə olur... Zakirin yaratdığı ədəbiyyat gələcək qüdrətli demokratik ədəbiyyatın ilk bünövrə daşı idi”.

**Mirzə İbrahimov,**
*Xalq yazıçısı*

Qasım bəy  Zakir yeganə şair idi ki, , ilk dəfə Azərbaycan poeziyasında tipik portretlər silsiləsi yaratmışdır.

**M. Mustafayev,**
*Filologiya elmləri namizədi*

Cılız duyğulara, ötəri hisslərə biganə olub bədii obrazlar, maraqlı xarakterlər, təsirli dil vasitələri ilə ifadə olunmuş Zakir şeirləri insanı humanistliyə, qurub yaratmağa, xoşbəxt həyat uğrunda mübarizəyə çağıran, alovlu ehtiraslardan yoğrulmuş sənət nümunələridir.

Klassik ədəbiyyatımızın layiqli varisi Zakirin əsərləri ideya dərinliyi, məzmunu, forması, sənətkarlığı ilə yaşadığı cəmiyyətin bədii mədəniyyətində keyfiyyət sıçrayışı idi. Bu sıçrayış klassik irsin bədii yaradıcılığı, cəmiyyətin mədəni həyatının yüksəlişi, ictimai yaraların dərinləşməsi, ziddiyyətlərin daha da kəskinləşməsi və şairin öz subyektiv hiss, arzu, amalı hesabına yaranmışdı. Bütün bunlar zəngin,

rəngarəng bədii formalar, mövzular, obrazlar törətməyə bilməzdi.

**H. Səmədzadə,**
*Ədəbiyyatşünas*

"M. F. Axundov və Q. Zakir arasındakı dostluq onların öz yaradıcılıq inkişafına və ümumiyyətlə, Azərbaycanda maarifçi, realist ədəbiyyatın, demokratik fikirlərin get – gedə güclənməsinə mühüm təsir göstərmişdir."

XIX əsr realist Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Q. Zakirin ədəbi irsi xalqımızın mədəniyyət xəzinəsinə daxil olmuşdur.

Satiranı əvvəlki məzmunundan şəxsi mənafe və əhvali ruhiyyədən, çox vaxt qərəzkarlıqdan irəli gələn tənqiddən xilas edib və ona ictimai rəng vermək böyük sənətkarlıq qüdrəti tələb edirdi. Belə bir işə Q. Zakir cəsarətlə girişdi və satiranı müstəqil cərəyan halına saldı. Zakir satiranı yalnız ideya və məzmun cəhətdən yox, sənətkarlıq cəhətdən də irəli aparmış və onu keçmiş bayağılıqdan xilas etmişdir".

**Əziz Mirəhmədov,**
Azərbaycanın əməkdar elm xadimi

"XVIII əsrdə yaradılmış olan folklor əsaslı ədəbi dil XIX əsrdə bir az da inkişaf etdirildi, XIX əsrin dil xüsusiyyətləri ilə dolğunlaşdırıldı. Bu dövrdə Şakir, Zakir, Nəbati və sairə bir sairə bir çox qoşmalar, dördləmələr yazıb bu stili, bu dili ən gözəl şeir dili olaraq işlətməyə başladılar. Buna görə də bu dil, bu qoşma dili XIX əsrdə, xüsusən Zakir vasitəsilə daha da mükəmməlləşdirilmişdir. Zakirin qoşmalarında asan və xalq

sözlərindən yaradılmış bədii ifadələr, metaforalar, obrazlar daha çox və mükəmməldir.

**Əbdüləzəl Dəmirçizadə,**
*professor*

Zakir Azərbycan dilini zənginləşdirmiş və incələşdirmişdir. Onun leksikonunun əsasını və canını ümumxalq sözləri təşkil edir.

**D. Məmmədova,**
*filologiya elmləri namizədi*

Öz zəmanəsi ilə sıx bağlı olan şair xalqının milli ruhunu, adət - ənənəsini, məişətini, onun təfəkkür tərzini yaxşı bilirdi. Elə buna görə də bizim sənətsevər xalqımız Azərbaycan ədəbiyyatı tarixində tənqidi realizmin və ictimai satiranın yaradıcılarından biri olan Qasım bəy Zakirin adını həmişə hörmətlə yad edir.

**Süleyman Hüseynov,**
*filologiya elmləri namizədi*

Qasım bəy Zakir M. P. Vaqifdən sonrakı ədəbiyyatın əsas hərəkətverici qüvvəsi olmuşdur. Mən Q. Zakirin yaradıcılığını yüksək qiymətləndirirəm.

**Adolf Berje,**
*şərqşünas*

Qasım bəy Zakirin bir çox nəğmələri yaxşı tərcümə olunarsa, məzmun və forma cəhətdən ən yeni alman poeziyası ilə müqayisə edilə bilər...

**N. İ. Qulak,**
*maarifçi*

Tənqidi ruhlu şeirləri ilə tanış olduqda Zakirin yaşadığı şəraitdəki həyat mövqeyinin aydınlığı, möhkəmliyini görmək mümkündür. İstər çar hakimi və bəy, istər ruhani və qazı, istərsə də tacir və yalançı təbib olsun, Q. Zakirin şəxsən tanıdığı şəxslər heç bir tərəddüd və qorxu bilmədən bu mövqedən qamçılanmışdır.

**Ramiz Novruzov,**
*filologiya elmləri namizədi*

Ana dili hər bir sənətkarın əlində fikrini hissini düzgün, dolğun əks etdirmək üçün əsas silahdır. Zakir bu silaha yiyələnmiş, Vaqifdən sonra Azərbaycan bədii dilini daha da zənginləşdirmiş və incələşdirmişdir".

**K. Məmmədov,**
*filoloq*

Qasım bəy Zakirin yaradıcılığı özündən əvvəlki Azərbaycan ədəbiyyatının qanuni inkişafıdır. Ağlın, zəkanın təntənəsinə inam Zakir poeziyasının mayasını təşkil edir.

**Əbdül Əzizov,**
*filologiya elmləri namizədi*

Qasım bəy Zakirin parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımızın tarixində özünəməxsus layiqli yeri vardır. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Qasım bəy Zakir dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır. Şairin yüksək əxlaqi keyfiyyətləri Azərbaycan xalqı tərəfindən hər vaxt bəyənilmişdir. *Bu məqsədlə, Qasım bəy Zakirin xatirəsini əziz tutaraq bir sıra **yubiley tədbirləri**nin təşkili vacibdir.*

Yubiley tədbirləri arasında **xatirə gecəsi** özünəməxsus yer tutur. Xatirə gecəsinə Qasım bəy Zakirin yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, tənqidçilər, jurnalistlər dəvət oluna bilər. Xatirə gecəsində şairin qoşmaları, mənzum hekayələri, təcnisləri, gəraylıları, tənqidi-satirik şeirləri, təmsilləri, qəzəlləri dinlənilir, yaradıcılığı haqqında maraqlı söhbətlər edilir.

Uşaq kitabxanasında Qasım bəy Zakirin irsinin oxucular arasında təbliği üçün **şeir müsabiqəsi**nin keçirilməsi maraqlı olar. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Çünki, bu tədbir uşaqlarda şeiri daha dərindən duymaq, başa düşmək haqqında təssəvvür oyadır. Uşaq kitabxanası olaraq müsabiqəni şairin təmsillərinə, tənqidi-satirik şeirlərinə həsr etmək olar.

Şeir müsabiqəsi ilə yanaşı rəsm müsabiqələrinin də təşkili mümkündür. Müsabiqədə Q. Zakirin yazdığı təmsillərə uşaqlar tərəfindən şəkillər çəkilməsi tapşırılmalıdır. Rəsmlərin çəkilməsi üçün oxuculara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular Qasım bəy Zakirin təmsillərini oxuyur və ən çox bəyəndikləri təmsilə aid olan şəkil çəkirlər. Ən gözəl məna kəsb edən rəsm işləri də kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə “Qasım bəy Zakir” in yaradıcılığı müasir gəncliyin gözü ilə” adlı **oxucular konfransı** da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Qasım bəy Zakirin yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Qasım bəy Zakirin həyat və yaradıcılığı haqqında məruzə)

2. Qasım bəy Zakirin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və şairlərin çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Qasım bəy Zakirin müxtəlif əsərləri ətrafında müzakirələri. Şairin qoşmaları, qəzəlləri, gəraylıları və s. söylənilir.

4. Konfransın yekunu.

Oxucularımızın sevimli şairimiz Qasım bəy Zakir haqqında olan fikirlərini öyrənmək məqsədilə **anket sorğuları**nın keçirilməsi də məqsədəuyğundur. Bunu nəzərə alaraq hazırladığımız sorğunu sizə təqdim edirik.

**1.** Qasım bəy Zakiri tanıyırsınızmı?
☺ Bəli
☺ Xeyir

**2.** Şair neçənci ildə anadan olmuşdur?
☺_______________________________________________

**3.** Qasım bəy Zakirin harada anadan olduğunu bilirsinizmi?
☺ Bəli
☺ Xeyir

**4** .Qasım bəy Zakirin təmsillərini oxumusunuzmu?
☺ Bəli
☺ Xeyir

**5.** Qasım bəy Zakirin ən çox sevdiyiniz şeirinin adını qeyd edin.
☺_______________________________________________

**6.** Qasım bəy Zakirin tənqidi-satirik şeirlər yazmağına səbəb nə idi?

☺_____________________________________________

**7**. Qasım bəy Zakirin “Durnalar” şeirini bilirsinizmi?

☺ Bəli
☺ Xeyir

**8**. Qasım bəy Zakirin ”Sədaqətli dostlar haqqında” və ”Xain dostlar haqqında” yazdığı təmsillərdə şair məktəbli dostlarımıza nəyi çatdırmaq istəmişdir. Hər iki təmsil haqqında fikrinizi izah edin.

☺_____________________________________________

**9**. Qasım bəy Zakir hansı dilləri bilirdi?

☺_____________________________________________

**10**. Qasım bəy Zakirin mənzum hekayələrindən hansının adını çəkə bilərsiniz və hansını oxumusunuz?

☺_____________________________________________

**11**. Qasım bəy Zakirin yazdığı əsərlər içərisində hansı mövzu sizi daha çox cəlb edir.

☺_____________________________________________

**12.** Qasım bəy Zakirin neçənci ildə vəfat etdiyi ili qeyd edin.

☺_______________________________________________

Kitabxanada Qasım bəy Zakirin 240 illik yubileyi ilə əlaqədar **ədəbi-bədii gecə** də keçirmək olar. Ədəbi-bədii gecələrin keçirilməsi şairin həyat və yaradıcılığı ilə yaxından tanış olmağa imkan verir, oxucularda şairin qəzəllərinə, qoşmalarına, tənqidi-satirik şeirlərinə, təmsillərinə maraq oyadır. Ədəbi-bədii gecənin ssenarisini təqdim edirik.Tədbiri müdiriyyət açıq elan edir. İlk öncə tədbir iştirakçılarına Qasım bəy Zakirdən bəhs edən slayd təqdim olunur.Tədbir keçirilən zalın divarlarına Qasım bəy Zakir haqqında söylənmiş sitatlar, təmsillərindən bəhz edən rəsm əsərləri, şairin şəkilləri vurulur.

***Muğam musiqisinin sədaları altında aparıcılar səhnəyə daxil olurlar.***

**I Aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar. Bildiyimiz kimi bu il Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuş, sənət və ədəbiyyat aləmində Azərbaycanın klassik ənənələrindən bəhrələnmiş, bunları öz poeziyasında uğurla davam etdirmiş, Qasım bəy Zakirin 240 illik yubileyi qeyd olunur. XVIII əsrin sonlarında -1784-cü ildə Azərbaycanın dilbər guşəsi olan Şuşa şəhərində, bəy ailəsində bir oğlan uşağı dünyaya göz açdı. Adını Qasım qoydular. Ailə mənşəyi və nəsli etibarı ilə bu oğlan Şuşa şəhərinin binasını qoyan Pənah xanın doğma qardaşı Hüseynəli ağanın nəticəsi idi. İllər bir-birini əvəzlədikdən sonra bu oğlan dövrünün ən məşhur şairlərindən biri olacaqdı...

Kuyindi Zakirin Darüssəlamı,
Heç kimsənin yoxdu belə məqamı.
Kakilin hədisi, zülfün kəlamı
Şərhi – Mütəvvəldi kitab içində.

**II Aparıcı:** Qasım bəy Zakir parlaq istedada və qabaqcıl ideyalara malik şəxsiyyət olmuş, Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuş, ədəbi-mədəni yaradıcılığında Azərbaycanın klassik ənənələrindən bəhrələnmiş, bunları öz poeziyasında uğurla davam etdirmişdir. Tənqidi satirik şeirlər, təmsillər, qoşmalar, qəzəllər, həzin, səmimi lirika, təbiət gözəlliklərinin və insanın könül dünyasının bəzən real, bəzən isə romantik, təsirli poetik vasitələrlə təsviri onun yaradıcılığının başlıca keyfiyyətləridir.

Ol keçən dəmləri hanı Zakirin,
İtkin olub adı-sanı Zakirin,
Qürbətdə çıxacaq canı Zakirin,
Yoxdu xeyirxahı o yar yanında.

**I Aparıcı:** Bəli, Azərbaycanın görkəmli satirik şairi Qasım bəy Zakir tənqidi realizmin təməl daşını qoyanlardan biri, dövrünün qabaqcıl fikir və meyllərinin ifadəçisi olmuşdur. Zakirin gənclik illəri siyasi hadisələrlə dolu mürəkkəb bir dövrə təsadüf edir. Azərbaycan xanlıqları üstündə gedən siyasi çəkişmələr, qanlı müharibələr, Ağa Məhəmməd şah Qacar qoşunlarının Qarabağa hücumu, Şuşanın işğalı, Qarabağ zadəganlarına şiddətli divan tutulması kimi hadisələr bu dövrdə vaqe olmuşdur ki, bütün bunlar şairin dünyagörüşünə mənfi təsir göstərmişdir. Zakir Şuşada ruhani məktəbində farsca təhsil alıb və fars dilini mükəmməl bildiyi üçün Firdovsi, Xəyyam, Xaqani, Nizami, Sədi, Cəlaləddin Rumi kimi böyük klassiklərin əsərləri ilə tanış ola bilib. Azərbaycan klassiklərindən Füzuli və Vaqifin şeirləri ilə dərindən tanış olub və öz yaradıcılığında bu şairlərdən daha çox istifadə edib.

Zakirəm, kuyində eylərəm fəryad,
Məgər eşitməzsən, ey sərvi – azad?
Bidar eylər idi çalanda Fərhad
Şirini yuxudan, tişə sədası

**II Aparıcı:** Zakir Mehdiqulu xanın ona bağışladığı iyirmi evdən ibarət kiçik Xındırıstan kəndinin cüzi gəliri ilə yaşayırdı. İlin ancaq yay fəslini Şuşada, qalan fəsillərini isə bu kənddə keçirir və şəxsən özü kənd təsərrüfatı ilə məşğul olurdu. Zakirin zəngin bədii irsi müxtəlif mövzularda və formalarda yazılan şeirlərdən ibarətdir. Burada xalq aşıq şeiri şəklində olan qoşma, təcnis, gəraylı, müxəmməs, müsəddəs, müstəzad, tərcibənd, tərkibbənd və müasir mövzularda yazılan satira, təmsil, mənzum hekayə, mənzum məktub və sair parçalara rast gəlmək mümkündür. Zakirin bədii irsi içərisində satiraları, təmsil və mənzumhekayələri daha böyük əhəmiyyətə malikdir. Onu öz dövrünün realist şairi kimi tanıdan və ədəbiyyat tariximizdə ona daha şərəfli mövqe qazandıran satiralarıdır. Zakirin satiralarında rüşvətxor çar hakimləri, fitnəkar bəylər, savadsız, elmsiz həkimlər, baqqal və tacirlərin tənqid olunduğunu aydın görmək mümkündür.

Vaiz bizə oxur şəri – Mustafa.
Harama mürtəkib olmayın əsla,
Özü lüm – lüm udur, batində əmma,
Zahirdə dediyi mənaya bir bax.

**I Aparıcı**:Zakirin yaradıcılığında onun mənzum hekayə və təmsilləri də mühüm yer tutur. Nizami, Xaqani, Füzuli və başqa Azərbaycan klassikləri öz mənzum hekayələrinin çoxunu müasir həyatın tələblərinə uyğun olaraq yazmışlar. Klassiklərin mənzum hekayələrində müəyyən hadisələrin, real insan surətlərinin, qabaqcıl ideyaların təsvir və tərənnümü verilir. Onun müxtəlif mövzularda yazılan "Məlikzadə və Şahsənəm",

"Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", " "Əxlaqsız qazı", kimi mənzum hekayələri vardır. Zakirin mənzum hekayələrində məhəbbət insanın ülvi və nəcib hissi kimi təsvir olunur. Məhəbbətdə sədaqət, mətanət və dözümlülük, vəfada möhkəmlik bu hekayələrin bir qismində əsas məzmunu təşkil edir.

Eşqdir, seyr etdi Rəsuli – xaki
Bir ani – vahiddə doqquz əflaki.
Eşqdir, Məsihi – fəsihkəlam.
Ərşi – müəllani eylədi məqam.

**II Aparıcı**: Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Zakir təmsillərini yazarkən birinci növbədə şifahi xalq yaradıcılığında geniş yayılan təmsillərdən və məşhur hind abidəsi "Kəlilə və Dimnə" əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli-təmsillərindən də istifadə edib. Qasım bəy Zakir ölməz əsərləri ilə ölümsüzlük zirvəsini fəth etdi. Azərbaycanın görkəmli satirik şairi Qasım bəy Zakir tənqidi realizmin təməl daşını qoyanlardan biri, dövrünün qabaqcıl fikir və meyillərinin ifadəçisi olmuşdur.

Böyük əgər deyə gündüzə gecə,
De ki, göydə ulduz səyrişir necə!
Nisbət verə gər gündüzə gecəni,
Söylə ki, yandırır afitab məni.

**I Aparıcı:** Q. Zakir və onun müasirləri olan A. Bakıxanov, İ. Qutqaşınlı və M. F. Axundov xalqın gözünü açmaq, onları maarifləndirmək üçün satiranı ədəbi janrların ən münasibi hesab edirdilər. Şairin əsərləri müstəqil ədəbi cərəyana çevrilən satirik şeirin vuran qəlbi və düşünən beyni olmuşdur. Q. Zakiri, Mirzə Şəfi Vazehi, Baba bəy Şakiri, Abbasqulu ağa Bakıxanovu, Mirzə Baxış Nadimi və başqa şairləri satira yazmağa təhrik edən

amillər yaşadıqları ictimai mühitdə baş verən hərcmərclik, özbaşınalıq və qanunsuzluqlar idi. Bunların arasında Q. Zakir maarifçi satiranın banisi olması ilə fərqlənirdi. Şair xalqı cəhalətdə və zillətdə saxlayanların pozulmuş əməl və əxlaqına dözə bilmir, satiraları ilə onları ifşa və ittiham edirdi. Q. Zakirin realizmi qabaqcıl rus demokratik fikri ilə bərabər Qərbi Avropadakı mütərəqqi ideyaların güclü təsiri ilə fərqlənirdi. Şairin yaradıcılığı bir də ona görə seçilirdi ki, o, yazdığı realist əsərlərində Azərbaycan həyatının bir çox tipik xüsusiyyətlərini ümumiləşdirməyi bacarmış, eyni zamanda , satirik şeirlərin yeni nümunələrini – mənzum məktub, taziyanə, mənzum hekayə və təmsil janrlarını yaratmışdır.

*Gəlin oxucularımızın ifasında Qasım bəy Zakirin M. F. Axundova yazdığı məktubundan bir parçanı dinləyək:*

Xəbər alsan bu vilanın əhvalın,
Bir özgədir keyfiyyəti – Qarabağ.
Həqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun, səyaq.

Qüttaüttəriqin vüfuru vardır,
Yaylaqda, aranda, qatar-qatardır,
Yenə soxa-soxdu, apar-apardır,
Bizim başımızda çatladı çanaq.

Zərgər, Drağarda aləm – aşikar
Bir ucdan oğurlar, bir ucdan satar;
Vay odur sahibi at başı tutar,
Yüz yerdən tökülür üstünə çomaq.

Qarabağda nə day qaldı, nə dana.
Bu gün, sabah qaçar hərə bir yana;
Tənbih etmək ilə Xındırıstana,
Xub saldı nizama ölkəni qoçaq.

Gədə - güdə olub sahibməsləhət,
Gündüz axşamadək danışır xəlvət.
İşlərimiz belə keçsə bir müddət,
Qədimilər olur tamam şil, axsaq.

Fəraqət oturur hər kəs bir işdə,
Nə yazda, yarıdıq nə də ki, qışda,
Yarəb, neyləmişdik bu dağılmışda,
Haram oldu bizə bir qarış torpaq.

Məqsədimiz hasil olmadı bizim,
Yeksandı hicrində gecə-gündüzüm;
Bu bədbəxtin halətindən, əzizim,
Barı o viladə olgil göz – qulaq.

**II Aparıcı:** Böyük satirikin gülüşü yaşadığı mühitin qan damarlarına qədər təsir etmişdir. Bu gülüşdən heç kim, nə xalqı maarif ziyasından uzaq tutmağa çalışan bəy, xan, mülkədar, nə çar məmurları, nə ruhanilər, nə də xalqı soyub – talayan başqa tüfeyli fırıldaqçılar yaxalarını qurtara bilməmişlər. Q.Zakir avam kütlənin gözünü açmaq, onların savadlanmasına yardım etmək məqsədilə yorulmadan çalışmışdır. O, qələmini süngüyə çevirərək xalqı zülmət səltənətində saxlayan mürtəce qüvvələrə qarşı gülüşün bütün növlərindən – satira, istehza, kinayə, sarkazm və yumordan bacarıqla istifadə etmişdir. Elə buna görə özünün həyatı zillətdə keçmiş, düşmənlərinin sayı getdikcə

çoxalmış, var – yoxu talan edilmiş, mülki zorla əlindən alınmış, oğlu və qardaşı oğlu  şərə salınaraq tutulmuş, qardaşı oğlu öldürülöldürülərək həbsxananın divarları dibində quyulanmışdır.

Öləndə Zakiri – xəstə
Növcavanlar dəstə - dəstə
Gəlməsin qəbrimin üstə,
Deyin, cananədən ayrı

**I Aparıcı:** Q. Zakirin yaradıcılığı maarifçi satiranın inkişafında ayrıca mərhələ təşkil etmişdir. Şair öz əsərləri ilə cəmiyyətin sağlam yollarla inkişafına, xüsusilə maariflənməsinə və bu yolla cəhalətdən qurtularaq bəy, məmur özbaşınalığına qarşı çıxmalarına çalışmışdır. Onun bu istiqamətdə yazdığı satiralar, o cümlədən "Aslan,  qurd və caqqal, "Tülkü və qurd" təmsilləri, "Dərviş və fəqir" mənzum hekayəsi və başqa yazıları 1988 - ci ildə Tiflisdə nəşr edilən "Ana dili" dərsliyinə salınmışdır. Şair xalqın nicatını yalnız maariflənməkdə görmüşdür. İctimai haqsızlıqlara qarşı amansız və mübariz olmaq ruhu şairin maarifçi realist və satirik şeirlərinin diqqəti cəlb edən xüsusiyyətlərindəndir.
**II Aparıcı:** Satirikin əsasən, ifşaçı ruhda olan realizmi, kəskin satirası, yaradıcılığında xalq həyatına yaxınlıq, feodal təhkimçi mühitdə kütlənin elmdən uzaq tutulmasına qarşı çıxması, yaşadığı mühitdəki nöqsanlara dərin istehzalı münasibət onu müasirlərindən fərqləndirirdi. Görkəmli satirikin xalq qarşısındakı xidmətlərindən biri də odur ki, o, M. P. Vaqifdən sonra Azərbaycan dilini daha yüksək pilləyə qaldırmağa çalışan ən böyük sənətkarlardan biri olmuşdur. O, dil məsələlərinə yaradıcı sənətkar kimi yanaşmış, şeirin, sənətin xalqa xidmətini daim nəzərə almışdır. Q. Zakir əsərlərini geniş xalq kütlələrinin başa düşdüyü bədii dildə yazmışdır. Məhz buna görə M. F.

Axundov, F. Köçərli, Ə. Haqverdiyev, A. Şaiq və başqaları azərbaycan dilinin incəliyindən, gözəlliyindən danışarkən Q. Zakirin adını dönə - dönə çəkmişlər. Ədəbiyyat tariximizdə görkəmli şair, maarifçi, Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi, aşıq poeziyasının varisi və davamçısı kimi səciyyələndirilən Zakir Molla Pənah Vaqif ənənələrini davam və inkişaf etdirmişdir.

Qorxuram ki, səg rəqiblər kəmalə,
Gecə - gündüz fikrim budur kəmalə,
Bəd əsillər çətin yetər kəmalə,
Əgərçi oxuya üzilən məni

**I Aparıcı**: Zakirin ”Durnalar” şeiri onun ictimai motivli qoşmalarındandır.Bakıda sürgündə olarkən yazılmış bu şeirin mövzusu şifahi xalq ədəbiyyatında geniş yayılmışdır. Belə ki, folklorda durnalar qəribliyin, kövrəklik və gözəlliyin timsalı, simvolu kimi alınmış, vəsf olunmuşdur. Zakirin “Durnalar” şeiri sələflərinin şeirlərindən siyasi məzmunu ilə seçilir. Bu qoşmada həzin bir kədər, kövrək duyğular canlı, şirin və yığcam dillə təsvir olunmuş, dövrün zülmü, ictimai haqsızlıq çox incə və sadə şəkildə qələmə alınmışdır.

*Gəlin oxucularımızın ifasında Qasım bəy Zakirin “Durnalar” şeirini dinləyək:*

Bir saat havada qanad saxlayın,
Nizam ilə gedən qoşa durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz,
Qaqqıldaşa – qaqqıldaşa durnalar?

Mən sevmişəm onun ala gözünü,
Nəsib ola bir dəm görəm üzünü.
Yoxsa danışırsız dilbər sözünü,
Veribsiniz nə baş – başa durnalar?!

Diyari – qürbətdə müddətdi varam,
Gecə - gündüz canan deyib ağlaram,
Mən də sizin kimi qəribü zaram,
Eyləməyin məndən haşa, durnalar!

Laçın yatağıdır bizim məkanlar,
Yavaş gedin, səs-səmirniz, anılar,
Qorxuram toxuna ötən zamanlar,
Sürbəniz dağılıb çaşa durnalar!

Zakirəm, od tutub alışıb ciyər,
Var isə canandan sizdə bir xəbər,
Təğafül etməyin allahı sevər,
Dönməsin bağrınız daşa, durnalar!

**I Aparıcı:** Şeirdəndə göründüyü kimi ana dili hər bir sənətkarın əlində fikrini və hissini dolğun, düzgün əks etdirmək üçün əsas silahdır. Q.Zakir bu silaha yiyələnmiş, Vaqifdən sonra Azərbaycan bədii dilini daha da zənginləşdirmiş və incələşdirmişdir. Bəli, şairin fikrincə bədii söz elə deyilməlidir ki, orada sözün mənası da dərinləşməlidir. Qasım bəy Zakir belə bir bacarığa malik idi. Q.Zakirin sadə azərbaycan dilində yazdığı əsərlərinin M. F.Axundovun heyrətinə səbəb olması təsadüfü deyildir. O, görürdü ki, Vaqifdən sonra şeirdə, sənətdə xalqa doğru meyilin ən gözəl nümunəsi isə Azərbaycan xalq dilinin şeirdə, sənətdə üstün mövqe tutması idi. Açıq və aydın

dildə" yazıb - yaradan Q. Zakirin leksikonunun əsasını və canını ümumxalq sözləri təşkil edir.

**II Aparıcı:** Qasım bəy Zakir Azərbaycan dilinin ən gözəl xüsusiyyətlərdən, incəliklərdən məharətlə istifadə etmiş, dildə olan məsələlərdən, ayrı - ayrı sözlərin xalq dilində işlədilən məna çalarlarından bol, həm də yerli - yerində işlətmişdir. Bütün bunlar şairin fikrini zənginləşdirmiş, sözün təsir qüvvəsini artırmış, həm də onu obrazlı, təbii və sadə etmişdir. Q. Zakir XIX əsr realist ədəbiyyatımızın inkişafına müsbət təsir göstərən və ona istiqamət verən maarifçi ziyalılardan olmuşdur. Şair öz yaradıcılığı ilə Azərbaycan ədəbiyyatını mövzu, fikir, ideya cəhətdən zənginləşdirdiyi kimi, janr etibarilə də onu inkişaf etdirmişdir. O, Azərbaycan dilinin bir çox gözəlliklərini şeirə, sənətə gətirmişdir.

Zakirəm, sızlaram misli-əndəlib,
Tapmayıb dərdimi, çəkildi təbib.
Bəxtəvər başına sənin, ey rəqib,
Xeyir sənə qismət oldu, şər mənə!

**I Aparıcı:** M.F.Axundovdan sonra realist – demokrat ədəbiyyatımızın görkəmli nümayəndələri də yeri gəldikcə Q. Zakir sənətinə müraciət etmişlər. Q. Zakir bir sənətkar kimi özündən sonrakı realist şeirimizin inkişafına müsbət təsir etmişdir. Bu təsir S. Ə. Şirvani və eləcə də M. Ə. Sabir yaradıcılığında özünü göstərmişdir. XIX əsr realist Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Q. Zakirin ədəbi irsi xalqımızın mədəniyyət xəzinəsinə daxil olmuşdur. Onun yaradıcılığı orta və ali məktəb proqramlarında, dərsliklərdə, müntəxabatlarda geniş yer tutmuşdur.

**II Aparıcı:** Böyük şair, görkəmli satirik Qasım bəy Zakirin maarifçilik fəaliyyəti, sonralar onun xələfləri, o cümlədən dostu M. F. Axundov tərəfindən davam və inkişaf etdirilmişdir. Həmin tarixi şəxsiyyətlərin, görkəmli ziyalıların elm, təhsil, maarifin

inkişafı, dilimizin saflığı uğrunda apardıqları mübarizələrin məntiqi nəticəsidir ki, hazırda bu sahədə böyük irəliləyişlərin, inkişafın şahidi oluruq.Q. Zakirin şeirinin uzun ömürlülüyünü həmişə onların məzmun və ifadə gözəlliyi ilə, forma və dil gözəlliyi ilə bağlamışlar. Zakirin şeirlərinə öz həqiqi qiymətini xalq vermişdir. Y. V. Çəmənzəminli, N. Nərimanov, S. Mumtaz, F. Qasımzadə, H. Səmədzadə, Ə. Sədzadə, H. Araslı, S. Vurğun, Ə. Mirəhmədov, K. Məmmədov, M. İbrahimov, S. Rüstəmov, Ə. Cəfərzadə, M. Mustafayev və başqaları Zakirin ədəbiyyatımızdakı mövqeyi, həyatı, realist ədəbiyyatın yaranması və inkişafında rolu, ictimai satiranın formalaşması uğrunda fəaliyyəti, onun sənətkarlıq qüdrəti haqında bir sıra dəyərli əsərlər yazmışlar.

Zakir, həzər eylə, bu çərxi-fani
Yola salmış Vamiq lə Sənani;
Fərhadü Məcnunun keçib dövrani,
Sənsən qalan ancaq mərdanələrdən.

**I Aparıcı:** Zakirin özünəməxsus üslubundan danışan tədqiqatçılar göstərirlər ki, onun hər hansı bir mübahisəli şeirini müasirlərinin və ya ümumiyyətlə, naməlum şairlərin əsərləri ilə müqayisə etdikdə həm bədii keyfiyyəti, həm də dili, ifadə tərzi etibarı ilə onlardan seçilir. Azərbaycan ədəbiyyatının bu görkəmli nümayəndəsi XIX əsrin birinci yarısında bir tərəfdən M. Füzuli və M. P. Vaqif ədəbi ənənələrini davam etdirərək qoşma, təcnis, gəraylı, qəzəl, müxəmməs, tərcibənd və tərkibbəndləri ilə şeirimizi mövzu və ideya cəhətdən zənginləşdirmiş, digər tərəfdən isə təmsilləri, satirik şeirləri və mənzum məktubları ilə tənqidi realizmin əsasını qoymuşdur.

Nə qədər ki, gəlir təndə nəfəsim,
Bülbüli-şeyda tək kəsilməz səsim;
Mənim səndən özgə yoxdur bir kəsim,
Yüz kimin-kimsənən o ki var, sənin.

**II Aparıcı:** Ədəbiyyat tariximizə həm lirik, həm də satirik şair kimi daxil olan Q. Zakir qanunsuzluğun, hərc-mərcliyin gündən-günə artdığını, məmurların özbaşınalığını, kəndlilərə edilən dözülməz zülmü təsvir etmişdir. Q. Zakirin yaradıcılığının birinci mərhələsini onun lirik şeirləri təşkil edir. Şairin aşıq şeiri səpgisində yazdığı əsərlərində şifahi xalq yaradıcılığının və M. P. Vaqifin böyük təsiri vardır. Təsadüfü deyildir ki, şairin heca vəznində yazdığı şeirlər içərisində qoşmaları fəxri yer tutur. Məzmun və formasına, yüksək bədii dili və orijinallığına görə seçilən bu qoşmaların əksəriyyətində sevgi və vüsal həsrəti ilə çırpınan aşiqin daxili aləmi, mənəviyyatı bütün zənginliyi ilə verilmişdir.

*Gəlin Qasım bəy Zakirin qoşmalarından bir parçanı oxucularımızın ifasında dinləyək:*

Badi – səba, söylə mənim yarıma,
Gözəllər çıxıbdır seyranə, gəlsin!
Təğafül etməsin, işrət çağıdır,
İçilir hər yerdə peymanə, gəlsin!

Bənövşələr salsın başın aşağa,
Nərgiz olsun gözlərinə sadağa.
Gül, camalın görüb düşsün torpağa,
Bülbülü gətirsin əfğanə, gəlsin!

Siyah zülfü tər buxaqda dənlənib,
Sonalar yerişi ondan öyrənib.
Ovçu görmüş maral kimi səksənib,
Oğrun baxa-baxa hər yanə, gəlsin!

Sürmə çəksin gözlərinə, qaşına,
Gündə yüz yol mən dolanım başına.
Zakir tək yanmağa eşq ataşına,
Cürəti var isə pərvanə gəlsin!

**I Aparıcı:** Qasım bəy Zakirin gəraylıları da bədiiliyinə görə qoşmalarından geri qalmır. İstisnasız olaraq bu sənət incilərinin hamısında bir nikbin və dünyəvi ruh hakimdir:

Ölsəm qoyun, sizi tarı,
Yönümü dilbərə sarı.
Özüm öz əlimlə yarı
Bu gün əğyarə tapşırdım.

Yaxud:

Hər kimsə ki, aşiq ola,
Mənim kimi həsrət ölə.
Bir əlini qoyun çölə,
Tanısınlar məzarından.

**II Aparıcı:** Ümumiyyətlə, Zakirin yaradıcılığı üçün xas olan həyat sevgisi, dünyəvi nemətlərin tərənnümü, nikbin əhvali – ruhiyyə onun bütün lirik şeirlərinin ana xəttini təşkil edir. Q.Zakirin zəngin ədəbi irsi içərisində Azərbaycan qadınlarının həyatı, dünyagörüşü, daxili aləmi və məhəbbətini özündə əks etdirən şeirlər xüsusi yer tutur. Şair qadının daxili gözəlliyi ilə yanaşı, zahiri gözəlliyini də qiymətləndirmişdir. Q.Zakir qadını "başıaşağı", "həyalı,"aşiqinə mehriban, qeyrilərinə biganə",

mərifətdə kamil, qədirbilən, sözü doğru, müdrik, aqil, əhli – hal, məkrü al bilməyən görmək istəyirdi.

Yadlar ilə danışmaya, gülməyə,
Namünasib yerə gedib-gəlməyə,
Hər sözü şəninə layiq bilməyə,
Namusu qeyrəti, arı gərəkdir.

**I Aparıcı:** Qasım bəy Zakirin əsərləri içərisində dini fanatizm, cəhalət və şəriət ehkamları əleyhinə yazılmış şeirlər mühüm yer tutur. Qasım bəy Zakirin bədii irsi içərisində onun epik əsərləri, xüsusən satiraları bizim üçün daha qiymətlidir. Şair satirik şeirlərində çar hökumətinin eyiblərini, dövlət məmurlarının rüşvətxorluğunu, idarələrdəki qanunsuzluqları, ümumiyyətlə, çar üsuli- idarəsini kəskin ifşa edir:

Gün kimi tutub aləmi bu şöhrəti-bica,
Divan əməltacına yox ədldə həmta.
Yüz təşnələbi-qəhr olasan, xadimi dövlət
Verməz bir içim su sana ta almaya dərya.

Simu – zər ilə doldurasan ta gərək ovcun,
Ondan sonra zahir qıla şayəd yədi – beyza.
Hər kimsə ki düşdü tora müşküldü xilası,
Çəkməzlər əl ondan  şirəsin sormayalar ta.

**II Aparıcı:** Bu, elə bir dövr idi ki, “hər əlifba oxuyan adını ruhani qoymuşdu”, ”Bir içim çay iləm yüz şahidi – bidin tapılır” dı, ”pişik şirə qorxu gəlir, quzu canavara həmlə edirdi”. Ölkədəki haqsızlığın, oğurluğun, quldurluğun, qətl-qarətin, hər cür özbaşınalığın əsas səbəbkarı yerli bəylər, xanlar, naiblər deyil ikibaşlı cəllad – çardır:

Nəçidir məmləkəti çala, çapa dana – doluq,
Əhli – divan ona hərgah desə kim, dincəl.

**I Aparıcı:**Hökumət başçılarına qarşı belə şiddətli etirazlarla çıxış edən Zakir hakim dairələrdəki süründürməçiliyin, ədalətsiz hökmlərin, qazıların rüşvətxorluğunun, məhkəmələrdə hökm sürən yalançı şahidliyin, zülm və zorakılığın daxili səbəblərini cəsarətlə açırdı. Bəzən o, bədbinliyə qapılaraq:

Dərd çox, bar giran, qövrə yetən yox, ya rəb,
Bizlərə səbr əta eylə və yainki əcəl.

deyirdisə, bu hisslərdən tez yaxa qurtarmağı da bacarırdı. Xalqı zalım hakimlərə qarşı çıxmağa, ədalətli qanun qaydalar uğrunda mübarizə aparmağa səsləyirdi. Qasım bəy Zakir sələflərindən öyrənərək ölməz sənət nümunələri yaratdığı kimi, xələflərinə də çox böyük poetik təsir göstərmişdir.

**II Aparıcı:** Həddən aşıb büxlü həsəd, şərarət,
Yoldaş – yoldaşına eylər xəyanət,
Alimdə əməl yox, bəydə ədalət...

Deyən Q. Zakir ədəbiyyat tarixində böyük xalq şairi kimi daxil olmuş, mövzu və məzmunun tələbinə uyğun bədii təsvir vasitələri işlətmiş, beləliklə də, şeirinin xəlqiliyinə səmimiyyət gətirmiş, realizmini dərinləşdirmişdir. S.Ə.Şirvani Zakirin on dörd qəzəlini, bir satirasını təzkirəsinə salmış, bir sıra qəzəlinə nəzirə yazmış, satiralarından bəhrələnmişdir. Bundan başqa X. Natəvan, P. Abdulla Zakirin şeirlərinə nəzirələr yazmışlar.

**I Aparıcı:** Q. Zakirin "Tərlanlar və elçilər", "Dəvəsi itən kəs" adlı hekayələri əxlaqi – tərbiyəvi məsələlərə həsr edilmişdir. Birinci hekayədə Yəmən və Herat hökmdarının şəxsində fikirləşmədən, məsləhət etmədən əmr verən dövlət başçılarına, yaşadığı dövrün hakim dairələrinə işarə edilir.

Çox nəf hasildir bu hekayətdən,
Guş edən ayılır xabi – qəflətdən
Təhəmmül etməsə padşah əgər,
Peşimanlıq əlin dizinə dögər.

İkinci hekayədə isə səbir və təvəkkül kimi fəlsəfi müddəalar, yersiz gülmək, heç bir səbəb olmadan şadlanmaq kimi fikirlər irəli sürülür. Bu hekayədə şairin gəldiyi qənaət belədir:

Hünərin əvvəli səbrü təhəmmül,
Taətin ovlası təkiyyə təvəkkül.
Tosənin bədəsli oynar, dingildər,
Yeriməz, yüyürməz, ziyadə kişnər.

**II Aparıcı:**Bütün bunlar Q, Zakirin Azərbaycan ədəbiyyatı tarixində mənzum hekayə və təmsilin inkişaf etdirilməsi sahəsindəki gözəl və məhsuldar yaradıcı əməyini çox gözəl səciyyələndirir. Cəsarətlə demək olar ki, Zakirin bu mənzum hekayələri ədəbiyyatımızda daha sonralar yaranmış bir çox mənzumələrin meydana çıxması üçün bədii zəmin təşkil etmişdir. Q. Zakir, xalqın əsrlər boyu yaratdığı zəngin və tükənməz söz xəzinəsindən çox ustalıqla istifadə etmişdir.

**I Aparıcı:**Şifahi xalq motivləri, canlı danışıqdan gələn söz və ifadələr şairin əsərlərinin canına və qanına hopmuşdur. Bunu onun qoşma, gəraylı, təcnis və bayatılarında , qəzəl, müxəmməs, müstəzad, tərkibbənd və tərcibəndlərində, mənzum məktublarında, satira, təmsil və mənzum hekayələrində işlətdiyi bədii təsvir və tərsim vasitələrində görürük. Şübhəsiz, Zakir sözə hakim olan qüdrətli sənətkar idi.Yaradıcılığının bu xüsusiyyətlərinə görədir ki, o özündən sonra gələn Azərbaycan şairlərinin bir çoxuna dərin poetik təsir göstərmişdir.

Ey Nəbiyyi-Mürsəl, ey kani-kərəm,
Zakirəm, şəfaət səndən istərəm.
Bir əməlim yoxdur, onda neylərəm
Deyələr tuşeyi-səfərdir mənə

İctimai varlığı bütün eyibləri ilə açıb göstərmək, həqiqəti sənət dili ilə söyləmək üçün şairin müxtəlif ədəbi yollar, vasitələr axtarmasının özü də diqqəti cəlb edən cəhətdir. Həqiqəti örtülü şəkildə, hadisə və əhvalatları başqa dövrə və yerə köçürmək yolu və ya təmsil, nağıl, rəvayət vasitəsilə söyləmək onun faydalandığı bədii üsullardan idi.

**II Aparıcı:** Satirik şair həyata, əxlaqa, insanlar arasındakı münasibətə fəal müdaxilə vasitəsi olan gülüşün, istehzanın islahedici qüvvəsinə inanırdı. O öz müsbət fikirlərinin həyata keçməsində istehzanı fəal bir vasitə kimi qiymətləndirirdi. Zakir zəhmətkeş kütlələrin arzularına uyğun iş görür, onun kədər və qəmini də, şadlığını da özününkü hesab edirdi. Zakir şeirə, sənətə də yüksək meyarla yanaşır, şairlik sənətini çox uca tuturdu.

Məsəli-məşhurdur eldə, obada,
Sən özün də eşidibsən ziyada;
Mərd ətəyin tutan yetər murada,
Namərdə başını endirmə, Mirza!

Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun nəşr olunmuş "Əsərləri"ndə: "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" ("İlan, Dəvə, Tısbağa"), "Tülkü və Şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, Qarğa, Kəsəyən, Ahu") adları ilə altı təmsili çap olunmuşdur.

**I Aparıcı:** Zakir təmsillərini yeni tarixi şəraitə, müasir həyatın tələblərinə uyğun olaraq yazmışdır. Bu əsərlərdə təbliğ olunan ideya şairin dövrü ilə həmahəng idi. O, bir tərəfdən dövrünün ictimai və siyasi hadisələrinə özünün eyhamları ilə işarələr edir,

zülmün əleyhinə çıxır, o biri tərəfdən zəmanə gənclərinə vəfa, sədaqət, mərdlik və s. kimi nəcib tərbiyəvi məsləhətlər verirdi. Zakirin realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun nəşr olunmuş "Əsərləri"ndə: "Aslan, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında" ("İlan, Dəvə, Tısbağa"), "Tülkü və Şir", "Sədaqətli dostlar haqqında" ("Tısbağa, Qarğa, Kəsəyən, Ahu") adları ilə altı təmsili çap olunmuşdur. Zakir təmsillərini yazarkən birinci növbədə şifahi xalq yaradıcılığında geniş yayılan təmsillərdən və məşhur hind abidəsi "Kəlilə və Dimnə" əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli təmsillərindən də istifadə etmişdir.

**II Aparıcı:** Zakirin əxlaqi tərbiyəvi xarakter daşıyan təmsilləri sırasında “Dəvə və eşşək”,”Tülkü və qurd”,”Xain yoldaşlar haqqında” adlı əsərlərini göstərmək olar. Zakir təmsillərində xalqın canlı danışıq dilindən, xalq ədəbiyyatından geniş istifadə etmişdir: ”Quyruğun basdın ilanın”, ”Kiçikdən xəta, böyükdən əta”, ”Əvvəl suyu yoxla, sonra soyun”, ”Bir paydan bir kişi doyar, gər bölünə, ikisin də ac qoyar”, ”Yaxşı gündə mənəm – mənəm deyənlər”, ”Ovu göydə alıb, göydə yeyənlər”, “Güclüyə nə duz, nə çörək”, “Heç adətdə yoxdur elçiyə zaval”,”El namusu elə düşər”, “Kürəyə düşməyən olmaz yumşaq”, ”Hər meşəyə güman aparma, boşdur” və s.

**Sədaqətli dostlar haqqında təmsili** ictimai məzmunu etibarilə daha səciyyəvidir. Təmsilin iştirakçıları tısbağa, kəsəyən, ahu və qarğadır. Tora düşmüş ahunu azad etməkdən ötrü dostlar birlikdə işə girişib öz məqsədlərinə nail olurlar.

*İndi isə gəlin oxucularımızın ifasında Q. Zakirin “Sədaqətli dostlar haqqında” təmsilindən bir parçaya tamaşa edək. Səhnə əsərə uyğun dekorasiyalarla bəzədilir. Səhnəyə təmsilə uyğun libaslarda aparıcı, tısbağa, kəsəyən, qarğa, ahu rollarının ifaçıları çıxırlar. Aparıcı sözə başlayır:*

**Aparıcı:** Bir tısbağa, bir kəsəyən, bir qarğa
Yoldaş olmuş idi bundan sabiqa.
Pakizə məkanda tutuban vətən,
Asibi – dəhrdən asudə, ey mən.
Ovqat keçirirdi yazü yayü qış,
Eyşü nüşə məşğul idi bitəşviş.

*Bir gün ahu da onlara yoldaş olur. Onlar bir yerdə çox mehriban dolanırlar. Hər gün başlarından keçən əhvalatı bir – birlərinə maraqla danışırlar. Bir gün ahu məkana gəlib çıxmadı.Yoldaşlar çox nigaran qaldılar.*

Bir ahu şol yerə eyləyib güzar,
Üç ikən həmdəmü həmrah oldu çar.
Səhərdən dağılıb hərə bir yana,
Günorta zamanı gəlib məkana,
Başından keçəni eylərdi söhbət;
Bu hal ilə dolandılar bir müddət.
İttifaqən, bir gün gəlməyib ahu,
Aldı yoldaşların canını qayğı.

*Yoldaşlar (tısbağa, qarğa, kəsəyən) nigaran halda qarğaya dedilər:*

“Dur, aç pərü bal,
Gətir biçarədən bizə bir əhval.
Şayəd ki, fəqiri, xudanəkərdə,
Damə salmış ola səyyad bir yerdə.

*Qarğa nigaran halda uçub, ahunu axtarmağa getdi. Birdən ahunu yerdə əl – ayağı bağlı şəkildə yatan gördü. Ovçu ahunu tutub bağlamışdı, özü isə başqa ovun dalınca getmişdi.*

**Aparıcı:** Biməksü təvəqqöf ovcə qalxıb zağ,
Dolanıb hər tərəf edərkən soraq,
Gördü ki, heyvanı səyyadi – birəhm,
Üqubəti – həqdən eyləməyib vəhm,
Tutub, əl – ayağın bağlayıb möhkəm,
Atıb günə qarşı, özü gedib həm.
Dami – təzvirini qurubdu genə,
Şayəd özgə şikar sala cənginə.

*Qarğa yerə enib, ahuya təsəlli etdi və onu yoldaşları ilə birgə qurtaracağına söz verdi. Sonra uçub bu bəd xəbəri yoldaşlarına çatdırdı. Yoldaşlar çox narahat oldular.*

**Aparıcı:** Ahuyi pabəndə verib təsəlli,
Qanadı on isə, eyləyib əlli.
Gəlib həmrəhlərə gətirdi xəbər,
Bir neçə naləvü şiyvən etdilər.

*Bu an kəsəyən sözə başladı:Məni qanadının üstünə al, ahunun yanına götür. Mən onun əl – ayağına bağlanmış ipləri kəsərəm.*

**Kəsəyən:** Məni qanadının üstünə götür,
O yer ki, ahunu görübsən, yetir.
Be – hövli – qüvveyi xaliqi – zülmən,
Bir ləhzədə bəndin parə qıllam mən”.

*Qarğa kəsəyəni qanadına alıb, ahuya çatdırdı. Kəsəyən ahunun ayağındakı ipləri kəsdi. Oradan qaçmaq istəyirdilər ki, tısbağa özünü onlara çatdırdı.Yoldaşlar tısbağanın gəldiyini görüb, sən nə fikirlə buraya gəldin?, sənin bizə nə köməyin dəyəcək? deyə deyindilər. İndi biz ovçu gələnə kimi qaçsaq, sən bizimlə çatdırıb gələ bilməyəcəksən. Aralıqda qalacaqsan. O zaman bir də biz gərək səni qurtarmağa gələk.*

**Aparıcı**:

Kəsəyəni qarğa alıb dalına,
Olan gücün verib pərü balına,
Bir zaman yetirdi ahuya muşi,
Qalmamışdı səbrü qərarü huşi.
Zərbi - dəndan ilə kəsib kəməndin,
Bir əndək qalmışdı dəf edə bəndin,
Gördülər tısbağa üftanü xiyzan,
Özünü yetirdi şol yerə nalan.

**Ahu, kəsəyən, qarğa:**

Nə fikir ilə gəldin burayə, görək,
Səndən bizə olacaqdı nə kömək?
Məgər ki, gələndə səyyadi – pürfən
Biz qaçaq, qalasan aralıqda sən!
O da bizə ola əlahiddə dağ.
Gərəkdi dübarə çalaq əl – ayaq".

*Bu sözləri eşidən tısbağa üzünü yoldaşlarına tutub dedi:Mən necə köməyə gəlməyə bilərəm. Heç dostluqda belə şey ola bilərmi ki, biri köməyə gəlsin, digəri asudə gəzsin.Kim dostluğa naxələf çıxarsa Allah o yoldaşa qəzəb edər.*

**Tısbağa**:

"Ey yarani – ba istiqamət.
Ayini – dostluqda deyil mürüvvət
Aşinanın biri gəzə asudə,
Şol birisi qala dami – qayğudə.
Girəm ki, məsrəfim yoxdur bir karə,
Necə dura billəm sizdən kənarə?
Tanrı o yoldaşa eyləsin qəzəb,
Kim, dari – dünyada ola xüdtələb!

*Bu anda uzaqdan ovçunun gəldiyini görüb, onlar həmin yerdən uzaqlaşdılar. Amma tısbağa ləng hərəkət etdiyi üçün çatdırıb onlarla birlikdə gedə bilmədi.Ovçu gəlib ahunu görməyincə çox dilxor oldu. O tərəf – bu tərəfə baxdı.Yerdə gəzən tısbağanı görüb, onu torbasına qoydu və yorğun halda yola düşdü.*

**Aparıcı:** Səyyad gəlib ol məqamə yetişdi
Kim, Ahunu pabənd edib getmişdi.
Baxıb hər tərəfə etdi nəzarə,
Görmədi be – qeyr əz rismani – parə.
Bir də bir tısbağa zarü sərgərdan,
Yaşınmaq qəsdilə dolanır hər yan.
Bəs ki, çox yüyürüb eniş – yoxuşa,
Ov tapmayıb əli çıxmışdı boşa.
Tısbağanın labüd torbaya saldı,
Ağzını bağlayıb dalına aldı.

*Qarğa havada uçaraq, ovçunu izləyirdi. Əhvalatı görüb, gəlib yoldaşlarına danışdı.*

**Aparıcı:** Qarğa dövr eyləyib ovci – həvadə,
Baxardı əməli – ibn Ziyadə
Gətirdi həmrəhi – fərarə xəbər.
Hali – binəvadən olub müstəhzər,
Muşi – sahibi – huş tapəb bir tədbir,

**Qarğa:** “durmaq vəqti deyil
Sən eylə məkr ilə payını axsaq,
Səyyadın önündə dolan bir səyaq.
Fikr eyləsin asan tutacaq səni,
Xəyali – xam ilə atıb kisəni.
O olsun şikarın tutmağa məşğul,
Mən ollam torbanı yırtmağa məşğul.

Ol zaman ki, qarğa eylədi səda,
Bil ki, tısbağanı etmişəm rəha.
Səbr eylə bir qədər ta ki, biz qaçaq,
Sən də sıçrayıb gəl yenə qarışaq"

*Yoldaşlar birlikdə yenə dostları tısbağanı qurtarmaq üçün tədbir tökdülər. Bu dəfəki tədbirdə ahu özünü yaralılığa vuracaqdı. Ovçu onu tutmaq üçün torbanı yerə qoyanda siçan torbanı deşib, tısbağanı xilas edəcəkdi. Elə ki qarğa səs çıxardı ahu tısbağanın azad olduğunu bilib oradan qaçacaqdı və dostlar yenə bir arada olacaqdı. Dedikləri kimi də etdilər. Beləcə qarğa, kəsəyən, ahu tısbağanı azad etdilər.*

**Aparıcı:** Bu məkr ilə oldu dü məhbus azad,
Qayıdıb gəldilər məsrurü dilşad.
Bu məsəlin vardır ona nisbəti:
Bir kəsin bir kəsə ola ülfəti,
Gərək zar olanda, o da zar ola,
Həmişə dostundan xəbərdar ola.
Nəinki dost qala dami – bəladə,
O gəzə arxayın dəştü səhradə.

*Təmsilin sonunda vəfalı dostlar yenə birlikdə firəvan həyat sürürlər. Şair təmsildə oxucusuna çatdırmaq istəyir ki, dost – dostdan həmişə xəbərdar olmalıdır. Dostu dara düşdükdə ona kömək etməli, şad günündə sevinməli, dar günündə yardım etməlidir. İştirakçılar tamaşanın sonunda tədbir iştirakçılarının alqış sədaları altında səhnədən ayrılırlar.*

**I Aparıcı:** Məktəbli oxucularımız Q. Zakirin bu təmsilini "Xain yoldaşlar haqqında" təmsillə müqayisə etdikdə sədaqətin, dostluğun, vəfanın necə gözəl hərəkət, yalançılığın, tamahkarlığın, hörmətsizliyin isə bəyənilməyən, pis hərəkət olduğunu açıq aydın görürlər. Bu təmsillərin oxucularımızın bir şəxsiyyət kimi formalaşmasında rolu böyükdür. Q. Zakirin

təmsillərindən bir qismi daha çox əxlaqi – tərbiyəvi xarakter daşıyır.(Dəvə və eşşək”,”Tülkü və qurd”,”İlan, dəvə,tısbağa”). Təmsillərdə yoldaşlıqda vəfalı olmaq, ağıllı nəsihətlərə əməl etmək, zəhmətlə dolanmaq kimi gözəl insani xasiyyətlər təbliğ olunur, murdar xasiyyətlər: yaltaqlıq, yalançılıq, xəyanət, hiylə və sairə tənqid atəşinə tutulur.

**II Aparıcı**: Q. Zakir xalq şeirinin qoşma, təcnis, gəraylı, bayatı formasında şeirlər yazdığı kimi, klassik şeirin qəzəl, müxəmməs, müstəzad, tərcibənd, tərkibbənd formalarında da şeirlər yaratmışdır. Q. Zakir Klassik şərq ədəbiyyatına , elmə, əfsanələrə, dini rəvayətlərə, musiqiyə dərindən bələd sənətkardır.

*Məsələn. Şairin müstəzadlarından bir hissəyə oxucumuzun ifasında diqqət edək:*

Xacə, belə sövda, belə bazar ələ düşməz,
Fərş eylə dükanı.
Bu saqiyi – sadə, meyi – gülnar ələ düşməz
Novruz zamanı.
Həm mütribü ney, cəngü dəfü tar ələ düşməz,
Tut rast, nəvanı.
Dünyada həyatın nə qədər var ələ düşməz,
Sür eyşü – cavanı.
Çün dövr müxalifdi digərbar ələ düşməz,
Çaldır əşiranı.
Ver şüğlünü şəhnazə ki, zinhar ələ düşməz,
Çək övcə sədanı.
Digah, segah iç meyi, təkrar ələ düşməz,
Kərm eylə həvanı.
Ahəngi – səfabəxş, xoşətvar ələ düşməz,
Çün, əhli – Aranı.

Axtarmaq ilə mövsimi – gülzar ələ düşməz
Azərbaycanı.
Hicazü Nişaburə onu eyləmə həmta,
Həm mülki – İraqə.

**IAparıcı:**“Rast”,”Müxalif”,”Əşiran”,”Şahnaz”,”Dügah”,”Se gah”,”Aranı”,”Azərbaycan”,”Hicaz”, “Nişaburi”,”İraq” kimi muğam və muğam şöbələrinin adları şeirdə çəkilir ki, şair onlardan həqiqi və məcazi mənalarda ustalıqla istifadə etmişdir. Q. Zakirin şeirləri real varlığı əks etdirən güzgü timsalında olduğu kimi, sənətə münasibətdə də fikirləri aydındır. Satirik şair həyata, əxlaqa, insanlar arasındakı münasibətə fəal müdaxilə vasitəsi olan gülüşün, istehzanın islahedici qüvvəsinə inanırdı. O öz müsbət fikirlərinin həyata keçməsində istehzanı fəal bir vasitə kimi qiymətləndirirdi. Zakir zəhmətkeş kütlələrin arzularına uyğun iş görür, onun kədər və qəmini də, şadlığınıda özününkü hesab edirdi. Zakir şeirə, sənətə də yüksək meyarla yanaşır, şairlik sənətini çox uca tuturdu.

Nə qədər ki, gəlir təndə nəfəsim,
Bülbüli-şeyda tək kəsilməz səsim;
Mənim səndən özgə yoxdur bir kəsim,
Yüz kimim – kimsənən o kivar, sənin.

**II Aparıcı:**Azərbaycan ədəbiyyatında satiranın kökləri dərinlərə gedib çıxır. Lakin ictimai satiranın yaranmasında Q. Zakirin müstəsna rolu olmuşdur.Təcrübə və müşahidə göstərir ki, Qasım bəy Zakir yaradıcılığının ideya – bədii orijinallığını, estetik dəyərini dərindən mənimsətməkdə, onun irsinin ölməzliyinin sirrini açmaqda şairin əsərlərindəki folklorizmdən başlamaq daha faydalı olur, effektli nəticələr verir. Ədəbiyyat tariximizdə görkəmli şair, maarifçi, Azərbaycan ədəbiyyatında ictimai satiranın banisi, aşıq poeziyasının varisi və davamçısı kimi

səciyyələndirilən Zakir Molla Pənah Vaqif ənənələrini davam və inkişaf etdirmişdir.

**I Aparıcı:** Zakir Azərbaycan klassik şeiri ilə yanaşı , aşıq poeziyasına da yaxşı bələd olmuş, folkloru bilmiş, yaradıcılıqla xalq ədəbiyyatından bəhrələnmişdir. "Durnalar" şeirinin mövzusu folklordan alınmış, folklora məxsus ifadələrddən istifadə olunmuşdur. Zakir mənzum hekayələrində çox ustalıqla atalar sözü və məsəl işlədir, böyük bir mətləbi yığcam sətirlərdə ümumiləşdirir: "El ağzını tutmaq olmaz, - məsəldi, Pərdəni götürmək yaman əməldi" (Həyasız dərviş və ismətli qadın); "Əvvəl imtahandır, sonra fərmayiş, yerinə qayıtmaz ta ki, düşdü diş", "At hünəri ummaq olmaz eşşəkdən. Ov aparmaq bəiddir köpəkdən"("Tərlanlar və elçiləri") və s. Bəli, Q. Zakir tənqidi realizmin görkəmli nümayəndələrindəndir. O, klassik şeiri, Vaqif ənənələrini inkişaf etdirən, Azərbaycan bədii dilini yüksək pilləyə qaldırmağa çalışan sənətkarlardandır.

*Ədəbi bədii gecənin sonunda müdriyyətə söz verilir. Müdriyyətin çıxışı:* Qasım bəy Zakir bizim ölməz sənətkarlarımızdandır. Kökü real həyata bağlı olan satira mövzusu Q. Zakirin mübariz qələmi ilə daha yüksək mərhələyə qaldırıldı və mühitin eybəcərlikləri bu parlaq güzgüdə əks etdirildi. Zakirin satirası əsarət, avamlıq və zülmü kəskin tənqid və ifşa etməkdə indi də öz əhəmiyyətini itirməmişdir. Sanki dövr bu ölməz sənətkarı ictimai çirkinlikləri ifşa etmək üçün yaratmışdı.

Görkəmli şair, mütəfəkkir Q. Zakirin adı və yaradıcılığı Azərbaycan mədəniyyəti tarixində fəxri yer tutur. Böyük , parlaq istedada, vətəndaşlıq ehtirasına malik sənətkar xalq poeziyasının öz diqqətəlayiq sələflərinin ən yaxşı ənənələrini əxz edərək,Azərbaycan ədəbiyyatını zənginləşdirmiş və inkişaf etdirmiş, xalqına xidmət göstərmişdir. Xalq da öz şanlı oğluna və şairinə layiqincə ehtiram göstərmişdir. Q. Zakir öz

vətəndaşlıq ehtirasının , öz istedadının qüvvəsi ilə kəskin, ifşaedici, satirik əsərlərində çarizm istibdadına qarşı çıxış edir, zülmün səbəbkarlarının, xalqın istirmarçılarının konkret adlarını çəkirdi. İrtica qüvvələri bunu şairə bağışlaya bilmədilər, ona qarşı əlbir oldular. Lakin təqib edilən Zakir əyilmir, öz qələmi ilə xalqına xidmət göstərməkdə davam edir, şərə və zorakılığa qarşı mübarizə aparır, onları ifşa edirdi. O, xalq yaradıcılığının klassik janrlarında işləyərək, xeyirxahlığı və ədaləti, gözəlliyi və məhəbbəti tərənnüm edərək, bununla da xalqın dəruni hisslərini ifadə edirdi. Şairin xidmət etdiyi həqiqət, ədalət, azadlıq, xeyirxahlıq, gözəllik duyğuları əbədidir. Məhz buna görə indi də onun şeirləri ilhamla səslənərək, qədirbilən nəsillərin ürəklərində canlı əks - səda doğurur. Anadan olmasının 240 illik yubileyini geniş qeyd etdiyimiz Q. Zakir xalqımızın müqtədir şairi, ölməz klassiki kimi həmişə yaşayacaq.

## Ədəbiyyat siyahısı:

## ƏSƏRLƏRİ


***Kitablar***

Seçilmiş əsərləri : poeziya. - Bakı : Çaşıoğlu, 2007. - 408 s. : portr. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərləri : poeziya. - Bakı : Avrasiya Press, 2004. - 400 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).

Təmsillər, hekayələr. - Bakı : Hədəf Nəşrləri, 2012. - 48 s. - Qasım bəy Zakirin hekayə və təmsilləri əsasında uşaqlar üçün nəsrə çevrilmişdir.

Təmsillər. - Bakı : Aspoliqraf, 2009. - 31 s. : rəngli şək., rəngli il. - (Məktəb kitabxanası).

***Kitablarda***

Qəzəllər ; Müxəmməslər ; Müstəzadlar ; Tərcibbənd və tərkibbəndlər ; Qoşmalar ; Gəraylılar və s. // XIX əsr Azərbaycan ədəbiyyatı (Poeziya). II cilddə. - Bakı : Nurlar, 2009. - C. I. - S. 52-243.

Qəzəllər ; Müxəmməs ; Qoşmalar ; Gəraylılar // XIX əsr Azərbaycan şeri antologiyası. - Bakı : Şərq-Qərb, 2005. - S. 49-59.

Aslan, Qurd və Çaqqal ; Dəvə və eşşək ; Tülkü və Qurd ; Xain yoldaşlar haqqında ; Sədaqətli dostlar haqqında // Məmmədova Ş. Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə. I cild : Folklor və klassik uşaq poeziyası. - Bakı : [s. n.], 2018. – C.1. - S. 155-167. - (Uşaq ədəbiyyatı).

Bahar oldu ; Ay mədəd ; Arzular və b. şeirlər // Azərbaycan Uşaq ədəbiyyatı antologiyas. – Bakı : Öndər,2005. – S.142-148.

Dəvəsi itən kəs : mənzum hekayə ; Tülkü və qurd : təmsil ; Aslan, qurd və çaqqal ; // Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Pedaqoji Universitet, 2012. - S. 136-140.

***Elektron resurslar***

Seçilmiş əsərlər [Elektron resurs] : poeziya - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : ağ-qara : il. ; 12 sm. - (Nizami layihəsi)/ - (qutuda).

## *HAQQINDA*

***Kitablarda***

**Əsgərli F.** Qasım bəy Zakir (1784-1857) : haqqında və əsələrindən nümunələr // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Pedaqoji Universitet, 2012. - S. 135. - XIX əsr uşaq ədəbiyyatı.

**Kərimov R.** Qasım bəy Zakir və müasirləri. - Bakı : Elm və Təhsil, 2013. - 252 s.

**Məmmədova Ş.** Qasım bəy Zakir (1784-1857) // Azərbaycan uşaq ədəbiyyatı. 3 cilddə. – Bakı : 2018. – C.1. – S. 155-157.

**Mustafayeva X.** Qasım bəy Zakir (1784-1857) // Azərbaycan uşaq ədəbiyyatı : Ali və orta ixtisas məktəbləri üçün dərs vəsaiti. - Bakı : Elm, 2011. - S. 85-87.

**Mümtaz S.** Qasım bəy Zakir və İliko Çavçavadze // Azərbaycan ədəbiyyatının qaynaqları. - Bakı : Avrasiya Press, 2006. - S. 264.

**Mümtaz S.** Qasım bəy Zakir // Azərbaycan ədəbiyyatının qaynaqları. - Bakı : Avrasiya Press, 2006. - S. 116-149.

**Namazov Q.** Qasım bəy Zakir (1784-1857) // Azərbaycan uşaq ədəbiyyatı. - Bakı : Bakı Universiteti nəşriyyatı, 2007. - S. 81-88.

**Şakir B. Qasım bəy Zakirə** // XIX əsr Azərbaycan ədəbiyyatı (Poeziya). II cilddə. - Bakı : Nurlar, 2009. - **C.I**. - S. 11- 16.

## DÖVRİ MƏTBUATDA

**Cəfərov N.** Rus dilinin Qafqaza nüfuzu və Qasım bəy Zakirin rus leksikonu // Ədəbiyyat qəzeti. - 2014. - 21 fevral. - № 7. - S. 5.

**Çəmənli M.** Satirik şeirimizin bayraqdarı : Qasım bəy Zakir // Naşir. - 2015. - № 2. - S. 42-44.

**Fərəcov S.** Qasım bəy Zakirin maarifçi dünyagörüşü // Mədəniyyət. - 2014. - 27 avqust. - № 65. - S. 15.

**Fərəcov S.** Zakir dastanı : Azərbaycan şairi, mənzum hekayə və təmsil ustası Qasım bəy Zakir haqqında // Mədəniyyət. - 2014. - 9 iyul. - № 52. - S. 15.

**Hacıyev Q.** Təhsil, elm və mədəniyyətin beşiyi : tarix olduğu kimi // Azərbaycan : qəzet. - 2015. - 12 fevral. - **№ 33**. - S. 11.

**Kərimov R.** Qasım bəy Zakirin farsca şeirləri // Mədəniyyət.az. - 2016. - № 2. - S. 74-77.

**Məmmədli R.** Ölümsüzlük zirvəsi : Qasım bəy Zakir - 230 // Mədəni Həyat . - 2014. - № 8. - S. 17-20.

**Klassik ədəbiyyatımızın layiqli varisi Qasım bəy Zakir**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**